**AZƏRBAYCANMİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏTANƏT MAŞALLAH qızı ABBASOVA**

# AZƏRBAYCAN XALQ ŞEİRİNİN MİFOLOJİ KÖKLƏRİ VƏ POETİK SİSTEMİ

**5719.01 – Folklorşünaslıq**

**Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Klassik folklor" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Muxtar Kazımoğlu – İmanov**
AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov**
AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor

**Məhərrəm Paşa oğlu Qasımlı**
filologiya üzrə elmlər doktoru, professor

**Ramazan Oruc oğlu Qafarlı**
filologiya üzrə elmlər doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

**Müdafiə** "___" _________ 2018-ci ildə saat ______ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD 01.201 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** Az-1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** "___" ___________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalq şeirinin bədii-poetik özəlliyi tarixin qədim dövrlərində ilkin insan cəmiyyətlərinin təşəkkülü prosesində ibtidai təsəvvür və düşüncələrin qaynağında formalaşmış, onun mif-ritual sintezindən qaynaqlanan mövzu dairəsi genişləndikcə yeni çalarları ortaya çıxmış, forma və məzmunu vəhdətdə təzahür edərək ulu əcdadın məişət tərzini, zövqünü, psixologiyasını əks etdirmişdir. Müxtəlif işlərə həsr olunan holavarlar, sayaçı sözləri, ovçu, toxucu nəğmələrinin, eləcə də mövsüm və məişət mərasimi nəğmələrinin, lirik xalq mahnılarının ifadə formaları, poetik sistemi təkcə ideyanın müəyyənləşməsinə xidmət etməmiş, həm də məzmunun işarəvi, tamamlayıcı faktına çevrilmişdir. Bu baxımdan folklor mətnlərinin araşdırılmasında çox hallarda sənətkarlıq məsələlərinə toxunmaqla kifayətlənilmiş, bu və ya digər problemin poetik informatiklik əsasında öyrənilməsi ön planda olmuşdur. Lakin nəsrin təhkiyə imkanlarından fərqli olaraq, nəzmdə (lirikada) səs kombinasiyalarının, simvollaşan sözlərin lakonik ifadə tərzi, ümumiyyətlə, şeir texnikasının özünəməxsusluğu mətnlərin ümumtürk düşüncəsinə bağlı poetik təcrübədə araşdırılmasının zəruriliyini ortaya çıxarır. Qeyd edək ki, Azərbaycan folklorşünaslığında xalq şeirinin öyrənilməsinin tarixi yeni olmasa da, bu mətnlər sistemli şəkildə mifoloji düşüncə müstəvisində və bədii yaradıcılıq aspektində xüsusi tədqiqat kimi hələ də araşdırılmamışdır. Bu sırada poetika anlayışı üzərində mətnlərin bədii təsvir, ifadə imkanları daha geniş şəkildə öyrənilsə də, bədiiliyin əsaslandığı təcrübə və qaynaqlar nisbətən arxa planda saxlanılmışdır. Bu gün xalq şeirinin poetik imkanlarının mif-ritual sintezindən doğan vasitələrlə üzə çıxarılmasının böyük əhəmiyyəti vardır. Xalq şeirində mifopoetik paradiqmaların genezis və transformasiyasının sistemli şəkildə tədqiqi qeyd olunan problemlərin araşdırılmasında başlıca yer tutur. Bu mənada xalq şeirinin mifoloji qaynaqlarının və ayrıca poetik sisteminin həm də türk etnoslarının ilkin dünyagörüşlərində, ibtidai təsəvvür səviyyəsində araşdırılması günümüzün aktual məsələlərindən biridir.

Zəngin xalq şeirinin ayrı-ayrı şəkillərinin başlanğıc mənbələrini, yaranmasını şərtləndirən amillər, onun tarixi inkişafının məqsədyönlü məqamları bu və ya digər formada xalq düşüncəsindən keçən ümumi bir qanunauyğunluğa tabedir ki, bədii mətnlərin poetik sistemi əsasında bu məsələlərin araşdırılması olduqca vacib məqamlardandır.

Xalq məişətinin, mərasimlərin ayrılmaz tərkib hissəsinə çevrilən arxaik nəğmələr – ovsunlar, dualar, holavarlar, sayaçı sözlərinin, həmçinin laylalar, oxşamalar, bayatılar, ağılar, lirik xalq mahnılarının və s. poetik imkanlarının öyrənilməsi həm də dilçiliyə, üslubiyyata bağlı bir çox problemlərin ümumiləşdirilmiş formada, ortaq şəkildə araşdırılmasını tələb edir. İlk ahəngdar səslərin yaranması şəraitində mifoloji məzmun qazanması, səs kombinasiyalarının mətnlərdə lirik, psixoloji ovqata xidməti bilavasitə ibtidai təsəvvürlərdən qaynaqlanan xalq mahnı və nəğmələrinin poetik quruluşunda eyni kontekstdə linqvistik poetikanın təcrübəsində də öz izahını tapır.

Lirikanın janr özəlliklərindən irəli gələn bir çox xüsusiyyətlərinin xalq şeirinin ibtidai şəkil və formasında təzahürü, bu özünəməxsusluğun zamanla dəyişikliklərə uğraması, yeniliklərlə əvəzlənməsi mexanizminin müəyyənləşdirilməsində də problemin öyrənilməsi aktuallıq kəsb edir.

Mifoloji düşüncənin və bədii yaradıcılığın spesifikasına verilən çoxsaylı təriflərdə bu anlayışların eyni başlıq altında ümumiləşdirilməsi həmişə mübahisə doğurmuşdur. Xalq şeirinin poetik xüsusiyyətlərini üzə çıxarmaqla problemin araşdırılması mifoloji düşüncə ilə bədii yaradıcılığın oxşar və fərqli cəhətlərinin aşkarlanmasını bir araya gətirir. İbtidai və sivilizasiyalı cəmiyyətlərin təsərrüfat həyatı, ulu əcdadın təbiətlə əlaqəsi məsələləri üzərində yaranan fərqlər sonda lirik mətnlərin poetik sisteminin özünəməxsusluğunu meydana gətirir. Bu sistemdə mifoloji şüurun fərqləndirilməsi daha vacib problemə çevrilir. Həyatı mif kimi yaşayan ibtidai insanın təsəvvüründə dünyanın rəngli modeli həm də müəyyən qanunauyğunluğun çevrəsində izah oluna bilir. Dünyanın, təbiətin və həyatın mifoloji dərki ibtidai insanın rituallarında bu və ya digər hərəkətlərə qoşulan nəğmələrdə xüsusi məzmun qazanır. Nəğmələrlə tənzimlənən hərəkətlər insan təsəvvürlərindən doğan nizamlı sujetləri bədiiləşdirir. Ən adi səs, səs kombinasiyaları, pıçıltılar belə bu çevrədə bəlli mifoloji aktın ardıcıllığını ifadə edir. Mərasimlərin, xalq oyunlarının nəğmə mətnlərinin ifa formalarına və musiqi təqtlərinə uyğunlaşdırılması kompleks şəkildə mərasimin mifoloji məzmununa bağlanır. Hərəkətlə nəğmələrin dramatikləşməsi məzmun və ifadənin birliyində çıxış edir. Mifoloji mətnlərin ilkin nəğmələrdə qorunun izlərinin bu kontekstdə geniş araşdırılması üslubu baxımdanda da problemin öyrənilməsini aktuallaşdırır.

Konkret şəkildə mifoloji elementlərin semantika və strukturlarının xalq şeiri şəkillərində araşdırılması problemin öyrənilməsində eyni aktuallığa bağlıdır.

Xalq şeirinin poetik quruluşunun özünəməxsusluğunun orijinal mədəni mühütlərdə inkişaf perspektivliyində fərqləndirilməsi də tədqiqatda aktuallıq kəsb edən məsələlərdən biridir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan folklorunun zəngin irsini təşkil edən xalq lirikasının yaranması tarixi onun öyrənilməsindən çox-çox qədim bir dövrə bağlıdır. Bu örnəklərin toplanılması və yazıya alınması bu gün qarşımıza nə qədər hazır folklor mətnləri qoysa da, xalq yaradıcılığının ağızlarda, yaddaşlarda yaşayan nümunələri daha çoxdur. Bu baxımdan dissertasiyada şəxsi toplama materiallarına daha çox yer verilmiş, axiv materialları da daxil olmaqla zəngin bir mənbəyə istinad olunmuşdur. Aşıq şeiri şəkilləri istisna olmaqla, bayatılar, ağılar, ovsunlar, müxtəlif iş, mərasim, mövsüm nəğmələrinin mifoloji motivləri, ayrıca bədii-estetik səciyyəsi və s. tədqiqatın predmetini təşkil edir. Xalq şeirinin bədii-poetik məzmununa bağlı nümunələrin yaranmasını şərtləndirən amillər, janrın sərhədlərinin müəyyənləşməsi, fərqli xüsusiyyətləri, üslubi meyllərdə obrazlılığın təşkili prinsipləri, mifik əlamətlərin genetik və ontoloji sistemləşdirilməsi, mifoloji obraz və obrazlılığın nəğmə mətnlərində funksionallığı, mifopoetik simvolların lirik mətnlərdə bədiilik xüsusiyyətləri yaratması və s. birlikdə götürülərək tədqiq olunmuşdur.

Tədqiqat işində ardıcıl şəkildə bədii yaradıcılığın spesifikasına bağlı ümumi nəzəri problemlər də araşdırılmış, rus və dünya folklorşünaslığında mübahisə yaradan terminoloji faktlara aydınlıq gərtirilmişdir. Tədqiqatın predmeti ətrafında mövcud olan çoxsaylı araşdırma və elmi fikirlər ümumiləşdirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd Azərbaycan xalq şeirinin mifoloji kökləri və ayrıca bədii xüsusiyyətləri əsasında ümumi poetik sisteminin müəyyənləşdirilməsidir. Araşdırmada aşağıdakı vacib vəzifələrin yerinə yetirilməsi qarşıya məqsəd kimi qoyulmuşdur:

- bədii və mifoloji yaradıcılığın spesifikasını müəyyənləşdirmək, müxtəlif nəzəriyyə, müddəalardan çıxış edərək problemi öyrənmək;
- xalq şeirində mifoloji dünyagörüşün xüsusiyyətlərini aşkarlamaq;
- mifoloji düşüncə və bədii yaradıcılığın qaynağında ilkin təsəvvürlər sisteminin rolunu müəyyənləşdirmək;
- mif motivlərinin xalq şeirinə transformasiyasının mexanizmini öyrənmək;
- xalq lirikasının janr xüsusiyyətlərinin müəyyənləşməsində mifologiya və bədii yaradıcılıq probleminə aydınlıq gətirmək;

- xalq şeirinin üslub meylləri istiqamətində poetik təhlil imkanlarını üzə çıxarmaq, ədəbi-bədii, linqvistik baxımdan kollektiv - şifahi yaradıcılığın tipologiyasını aydınlaşdırmaq;

- xalq şeirində mifoloji və poetik modellərin genetik sitemləşdirilməsinin ümumi təhlilini aparmaq:

a) arxaik modellərdə genepoetik sistemin təhlilini vermək;

b) xalq şeirində islam mifoloji görüşlərinin mədəni-tarixi sistemini araşdırmaq;

- xalq şeirində bədii və mifoloji modellərinin ontoloji sistemləşdirilməsinin tədqiqini aparmaq:

-xalq şerinin poetik strukturundakı bədii obrazlılığı formalaşdıran vasitələri – Dünya Modelinin ayrı-ayrı elementlərini, predmetləri, canlılığı, şəxsləndirilməni, rənglər və sayların simvollaşmasını eyni sistem əsasında araşdırmaq.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Dissertasiyada xalq şeirinin tarixi-tipoloji təkamülü əsas götürülməklə poetik strukturunun məzmun, forma imkanları geniş tədqiq olunmuşdur. Azərbayacan və dünya folklorşünaslığının əldə etdiyi son nəticələr tədqiqatın metodoloji əsasını təşkil edir. Xalq şeirinin ayrı-ayrı janrlarının formalaşması, yaranmasının tarixi şəraiti və inkişafının tarixi-mədəni kontekstdə izahı, yeri gəldikcə, analiz və sintez, induksiya, deduksiyaya əsaslanan təhlil-tədqiqat üsullarından da istifadəyə imkan verir.

Xalq şeirinin mifoloji qaynaqlarının və poetik sisteminin konkret mətn strukturlarında səs kombinasiyalarından başlayaraq, bütöv söz, fikir elementlərinə qədər sistemli təhlili struktur-semiotik təhlil aparılmasına imkan yaradır.

**Mövzunun araşdırılması dərəcəsi.** Azərbaycan folklorşünaslığındaproblemin öyrənilməsi ümumi şəkildə mifologiya və xalq ədəbiyyatı ilə bağlı tədqiqatlarda əsasən üç istiqamətdə aparılmışdır:

1) Xalq lirikasının poetik imkanlarının tədqiqi ilə bağlı aparılan nəzəri-təcrübü araşdırmalar;

2) Bütövlükdə, xalq ədəbiyyatı janrlarının araşdırılması istiqamətində yazılan dissertasiya, monoqrafiya və məqalələr;

3) Xalq ədəbiyyatı janrlarının üslub özəlliklərinin tədqiqi üzərində aparılan araşdırmalar.

Hər üç istiqamətdə aparılan tədqiqatlarda qoyulan problemə geniş şəkildə yanaşılmamış, xalq nəğmələrinin mifoloji qaynaqları və bədii xüsusiyyətləri janr poetikasının spesifikası daxilində öyrənilmişdir. Qoyulan problemin araşdırılması ilk növbədə bədiilik anlayışı, ayrıca

mifoloji yaradıcılığın xüsusiyyətlərindən irəli gələn bir çox nəzəri məsələləri əhatə edir. Mifoloji düşüncə və poetik obrazlılığın araşdırılması dünya filoloji təcrübəsində mühüm elmi əhəmiyyət kəsb etmiş, XX əsrin 80-90-cı illərindən başlayaraq şərtilik elementlərinin, mifoloji modellərin filoloji fikirdə öyrənilməsi geniş vüsət almışdır. Xüsusilə, rus və Avropa folklorşünaslığında miflə bağlı yaranan nəzəriyyələr, mif poetikasının öyrənilməsinə maraq nəticə etibarilə bu sahədə çoxsaylı fundamental tədqiqatların yaranmasını şərtləndirmişdir[1].

Nəzəri folklorşünaslıqda mifologiya və bədii yaradıcılıq terminlərinin elmi izahının verilməsi mübahisəli məsələlərdən biri olmaqla bu sırada aparılan tədqiqatlarda ayrıca yer tutmuşdur. Mifoloji düşüncənin poetikliyə bağlılığı ümumi bədii yaradıcılıqda izah olunsa da bir sıra hallarda terminlərin dəqiqləşdirilməsi zərurəti yaranırdı. Mifoloji yaradıcılıq bütünlüklə foklor mətnlərini əhatə etmədiyi halda öz-özlüyündə tam şəkildə poetik təcrübə daxilində öyrənilir. Dünya filologiyasında mifopoetika termininin qəbulu nəticə etibarilə mübahisə doğuran terminlərin dəqiqləşməsinə yol açır, nəzəri baxımdan mifologiyanı və bədii düşüncəni sərhədləşdirir. Bu problemin dünya miqyasında ən ardıcıl və nüfuzlu tədqiqatçısı D.P.Kozolupenkodur[2]. O, “Mifopoetik dünyaqavramı” adlanan fundamental tədqiqatında miflərin yaranması özəlliyi, müasir araşdırmalarda miflərin təsnifatının aparılması, miflə bağlı nəzəriyyələr, miflərin sosial-psixoloji funksiyaları, mifopoetikanın mahiyyəti, strukturu və s. məsələləri geniş araşdırmışdır. Rus və Avropa folklorşünaslığında mifoloji modellərə bağlanan xüsusi tədqiqatların ön plana çəkilməsi Azərbaycan elmində də daha irəli getmiş, xüsusilə folklor tədqiqatlarında ayrıca diqqət mərkəzinə çevrilmişdir. Professor A.Hacılının “Mifopoetik təfəkkür fəlsəfəsi” (Bakı, Mütərcim, 2002), f.üz.e.d R.Qafarlının “Mif və nağıl” /Epik ənənədə janrlararası əlaqə, (Bakı, ADPU-nun nəşri, 1999), “Azərbaycan türklərinin mifologiyası” -Mifik dünya modeli, təsnifat, (Bakı, Ağrıdağ, 2004), “Mif, əfsanə, nağıl və epos” /Epik ənənədə janrlararası əlaqə, (Bakı, ADPU-nun nəşri, 2002), Mifologiya /6 cilddə, 1-

---

[1]Аникин Б.П.,Круглов Ю.Г. Русскоенародноепоэтическоетворчество. Ленинград. Просвещение, 1983; Дубянский А.М. Ритуально-мифологическиеистокидревно-тамильскойлирики. Москва, Главная редакция Восточной литературы, 1989; Кургузова Н.В. Мифопо-этический аспект про-странственно-временной системы русской свадебной лирики: песни и причитания. Орел, 2007; Леви-Стросс К. Первобытноемыщление. Москва, Терра-Рес-публика,1999; Мальцев Г. И. Традиционные формулы русской необрядовой лирики (Иссле-дование по эстетике устно-поэтического канона). Ленинград: Наука (Ленинградсукое отделение), 1989 və b.

[2] Козолупенко Д.П. Мифопоэтическоемировосприятие. Москва, Канон + РООИ Реабилитация, 2009, 432с.

ci cild. Mifogenez: rekonstruksiya, struktur, poetika, (Bakı, "Elm və təhsil", 2015), prof. F.Bayatın "Mitolojiye giriş", (KaraM, Çorum, 2005), prof. R.Əliyevin "Mifoloji şüurun spesifikası" (Bakı, Qartal, 2000), "Mif və folklor". Genezisi və poetikası, (Bakı, Elm, 2005), f.üz.e. d S.Rzasoyun "Mifologiya və folklor"/ Nəzəri-metodoloji kontekst, (Bakı, Nurlan, 2008) və s. tədqiqatlarda mif və folklor kontekstində mifoloji və ayrıca bədii yaradıcılığın spesifikası məsələlərinə də toxunulmuşdur. Problemin nəzəri baxımdan elmi təhlilinin aparılması bu tədqiqatlarda mifopoetikliyin, ayrıca mifoloji və bədii düşüncənin məzmununun fərqləndirilməsini təhlilə gətirir.

Bir sıra tədqiqatlarda isə problemə yanaşma müxtəlif poetik məsələlərin öyrənilməsində zərurətə çevrilmişdir. Fil.ü.e.d., prof M.İmanovun folklorun ayrı-ayrı janrları, bütövlükdə lirik, epik, dramatik növü əhatə edən xalq gülüşünün poetik və arxaik kökləri, fil.ü.e.d., prof C.Bəydilinin (Məmmədov) türk mifoloji obrazlar sisteminin araşdırılması istiqamətindəki tədqiqatlarında mifə bağlı folklor ənənəsi məsələləri də öz əksini tapmışdır[1]

Professor F.Bayat mifoloji düşüncənin fantastik şəkildə anlaşılmasını estetik düşüncədə izah edərək yazır: " Bədiyyat və fantaziya sadəcə əşyanın özü deyil, onun ifadəsi olduğu halda, mifoloji fantaziya ideal və əşyanın, yaxud ideal və ifadənin özəlliyindəki fərqliliyə dayanaraq izah edilə bilir"[2]. F.ü.e.d S.Rzasoy mifik və tarixi düşüncənin "Arxetip-tip", "İnvariant-paradiqma" münasibətləri çərçivəsində konkret bir mif – Oğuz mifi əsasında mif-epos sisteminin zaman, məkan keçidində transformasiyasının mifogenetik strukturunu irəli sürür. Mifin daha çox bədii-estetik məzmun qazanmasını tədqiqatçı mərasim rituallarının zamanla itirilməsi kimi izah edir: "Kosmoloji epoxanın başa çatması ilə onun düşüncə tipi parçalanır və tarixi düşüncə tipinə transformasiya olunur... Get-gedə öz müqəddəsliyini və mərasim əsaslarını itirən mif daha çox bədii-estetik, dini, fəlsəfi əsaslar kəsb etməyə başlamışdır"[3].

Konkret janr çərcivəsində lirik mətnlərin öyrənilməsində maraq doğuran tədqiqatlardan biri də prof. A.Hacılının "Bayatı poetikası" adlı araşdırmasıdır. Lirik mətnlərin mahiyyəti, informativ təbiətini insan sivilizasiyasının ilk mərhələlərindən qaynaqlanan əsatiri təfəkkürün izlərində araşdıran tədqiqatçı bayatıları həyati, sosial, tarixi məzmuna bağlı

---

[1]M.Kazımoğlu (İmanov). "Gülüşün arxaik kökləri", Bakı, 2005; "Xalq gülüşünün poetikası", Bakı, Elm, 2006; C.Bəydili (Məmmədov). Türk mifoloji obrazlar sistemi (struktur və funksiya). Bakı, Mütərcim, 2007.

[2] Bayat F. Mitolojiye giriş. KaraM, Çorum, 2005, s. 28.

[3]Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı, Yazıçı, 2008, s.65

ictimai, əbədi, magik məzmunda sakral, şəxsi-mənəvi motivdə isə intim üslubi meyillər əsasında sistemləşdirir.

Xalq şeirinin poetik sisteminin araşdırılması məsələsinə şifahi ədəbiyyatın janrlarının tədqiqi istiqamətində yazılan bir sıra araşdırmalarda ümumi şəkildə yanaşılmış, ayrıca mifoloji və bədii yaradıcılığın sərhədləri dəqiqləşdirilməmişdir. Xalq mərasimləri ilə bağlı tədqiqatlarada isə problemə daha konkret formada yanaşmalara rast gəlinir. Görkəmli folklorşünas M.Təhmasibin "Azərbaycan xalq ədəbiyyatında mövsüm və mərasim nəğmələri" adlı, mərhum folklorşünas-alim B.Abdullanın "Azərbaycan mərasim folkloru", dos. A.Xürrəmqızının eyni adlı "Azərbaycan mərasim folkloru" tədqiqatlarında da mərasim folkloruna bağlı nəğmələrin mifoloji və poetik məzmunu üzərində araşdırmalar aparılmışdır[1]. Xalq şeirinin ayrı-ayrı janrlar əsasında tədqiqatlara cəlb olunması nəticədə qoyulan problemin bu və ya digər istiqamətdə öyrənilməsinə gətirib çıxarmışdır. A.Əliyevin "Azərbaycan bayatılarının bədii xüsusiyyətləri" adlı dissertasiyası (Bakı, 1980), Asif Hacılının "Bayatı poetikası" (Bakı, 2000), A.Nəbiyevin "Azərbaycan uşaq folkloru" (Bakı, 2000), R.Qafarlının "Uşaq folklorunun janr sistemi və poetikası" (Bakı, "Elm və təhsil", 2013) tədqiqatları bu sırada zəngin araşdırmalardandır.

Problemin öyrənilməsində lirik mətnlərin üslub xüsusiyyətlərinin tədqiqinə həsr olunan araşdırmalarda da qismən toxunulmuşdur[2]. N.Rzayevanın " Lirik xalq mahnılarının poetikası" adlı tədqiqatında mahnı janrının mənşəyi, yaranma səbəbləri, mövzu-məzmun əhatəsi, janrdaxili təsnifatı ilə yanaşı, bədii-estetik xüsusiyyətləri də araşdırmaya cəlb olunmuşdur[3]. Tədqiqatda mahnıların poetik sistemi təsvir və tərənnümün bağlandığı müxtəlif təşbeh, bədii təyinlər və onların mətnlərdəki zəngin çalarlarına toxunulmuşdur. Xalq mahnılarının mifoloji obrazlılığı, çoxqatlı simvollaşma və s.məsələlər isə tədqiqatdan kənarda qalmışdır.

**Dissertasiyanın elmi yenilikləri.** Qeyd etdiyimiz kimi, qoyulan problem uzun illər Azərbaycan folklorşünaslığındapərakəndə şəkildə öyrənilmiş və mahnı folkloru bütün janrları ilə birlikdə tədqiqata cəlb olunmamışdır. İlk dəfə olaraq xalq şeirinin bədii-estetik səciyyəsi sistemli şəkildə mifoloji kökləri və ayrıca poetik imkanlarının öyrənilməsi

[1] Təhmasib M.H. Seçilmiş əsərləri. Bakı Slavyan Universiteti, 2010, 488 s; Abdulla B. Azərbaycan mərasim folkloru, Bakı, Qismət, 2005; Xürrəmqızı A. Azərbaycan mərasim folklor. Bakı, 2002, 210 s.
[2] Qafarova S. Azərbaycan xalq şeirində bədii üslub, Bakı, Mütərcim, 2006, 156 s.
[3] Rzayeva N. Lirik xalq mahnılarının poetikası, Bakı, Yazıcı, 2008, 132 s.

istiqamətində araşdırmaya cəlb olunur, mifoloji kodların əsas parametrləri müəyyənləşdirilir.

İlk dəfə olaraq xalq şeirinin poetik imkanları mifoloji düşüncə və etnopoetik məzmunda janr, üslub xüsusiyyətləri ilə birgə tədqiq olunur. Folklor poetikasının öyrənilməsində bu üsul praktiki, elmi-nəzəri şəkildə əsaslandırılır.

İlk dəfə olaraq xalq şeirində poetik məzmun qazanan mifoloji modellərin konkret sistemləşdirilməsi aparılır. Bu sistemləşdirilmə əsasında bədii və mifoloji obrazlılığın qaynaqlarının və predmetinin aydın mənzərəsi təqdim olunur.

İlk dəfə olaraq qədim peşə nəğmələri mif yaradıcılığı təcrübəsində tədqiqata cəlb olunur, mifoloji ritmikanın struktur, səviyyələri müəyyənləşdirilir.

Xalq şerinin poetik strukturunda mifik dünya modelinin predmet, canlı obazları, say, rəng və rəqəmlərin simvolikası üzərində araşdırılması da dissertasiyanın elmi yeniliklərindən sayıla bilər.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın elmi–nəzəri və praktiki nəticələrindən folklorşünaslıqda folklor poetikası, xalq nəğmələri, onların poetik imkanlarının araşdırılması ilə bağlı aparılan tədqiqatlarda istifadə oluna bilər. Araşdırmanın elmi-nəzəri əsasları həmçinin filologiya fakültələrində folklorun tədrisi ilə bağlı xüsusi kurslarda da tədrisi əhəmiyyətə malikdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA Folklor İnstitutunun "Klassik folklor" şöbəsində hazırlanmışdır. Tədqiqatın elmi-nəzəri müddəalarından irəli gələn nəticələr müəllif tərəfindən müxtəlif diskussiyalar, elmi konfranslar, simpozium, sessiya və iclaslarda dinlənilmişdir. Problemin araşdırılmasından əldə olunan umumi nəzəri məsələlər tədris prosesində təcrübədən keçirilmişdir. Bundan başqa, dissertasiyanın əsas məzmunu AAK-ın tələblərinə uyğun olaraq müxtəlif elmi dərgi, məcmuələr və konfrans materiallarında dərc olunmuş, eləcə də xarici mətbuat orqanlarında məqalə və tezis şəklində çap olunmuşdur. Eyni zamanda dissertasiya monoqrafiya – kitab şəklində də çap olunub, mütəxəssislərə təqdim edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, Azərbaycan-türk mifologiyasının araşdırılma dərəcəsi, tədqiqatın nəzəri və metodoloji əsası, obyekti və predmeti, elmi yeniliyi, praktik əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Birinci fəsil **"Xalq ədəbiyyatında "mif və bədii yaradıcılıq" probleminin nəzəri-metodoloji əsasları"** adlanır. Burada mifologiyanın tədqiqi tarixindən, müasir elmi nəzəriyyələrin əsas müddəalarından bəhs edilir, problemin müxtəlif tərəflərdən şərh edilməsinin nəticələri ümumiləşdirilir, dünya elmi-nəzəri fikrində mövcud olan qənaətlərə münasibət bildirilir. Bu məsələlər barədə yeni mülahizələr də irəli sürülür.

**"Bədii mətnin strukturuna mifogenezis kontekstində baxış"** adlanan yarımfəsildəbədii mətnlərin poetikasının mifologiyaya bağlılığının araşdırılması məsələsi qoyularaq öncə bu sistemin dünyağörüşü kimi öyrənilməsi, spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsi və.s şərh olunur. Məlumdur ki, ilkin çağlarda mifologiya təsəvvürə gətirilən bütün varlıqların, yaranışların, ritualların, inam və etiqadların əsasında dayanırdı. Bu sistemdə mahnı folkoru formalarının ayrıca götürülüb mif motivlərinin poetik sistemində fərqləndirilməsi bilavasitə ibtidai kollektivçilik ənənələrinin sonrakı çağların sivil cəmiyyətləri ilə bir araya gəlməsini şərtləndirir.

Bədii mətnin mifoloji strukturunun öyrənilməsi bir çox tədqiqatlarda mifopoetika termini əsasında aparılır ki, burada mif poetikası, ayrıca mətn bədiiliyi müəyyən mübahisələr yaradır. Mifopoetika, hər şeydən əvvəl, mədəniyyətin xüsusi hissəsi, tipi deyil, ən başlıcası dominant dönyagörüşü olmaqla dünyanı dərk etməyin xüsusi formasıdır. İlk variantda mifopoetika mif kimi çıxış edir, hansı ki onun əsasında ibtidai cəmiyyət və onun mədəniyyəti dayanır.

Yaradıcı düşüncədə bədii mətnlər əsasən üç kontekstdə – söz, obraz və ideya kontekstində formalaşır ki, obraz məsələsi bu strukturda xüsusi mərhələ təşkil edir[1]. İşarənin mövcud ilkin mifoloji, fəlsəfi tərəfi söz obraz müəyyənlyində mühüm rol oynadığından poetika və bədii semantika yalnız əsərdə formanı deyil, həm də bədii düçüncənin özülünü müəyyənləşdirən vasitə kimi qəbul edilir. Məhz bu baxımdan mifologiya dilin formalaşma və inkişafının ilkin, qaçılmaz bir mərhələsində seçilir.

[1] Поляков М. Вопросы поэтики и художественной семантики. Москва, Советский писатель, 1978, ст.53

A.A.Potebniya obrazlı şəkildə dilin bu vəziyyətini uşaq xəstəliyi adlandırır. Hansı ki, ən sağlam orqanizm belə gec-tez bu xəstəliyə yoluxmalıdır.[1] Mifoloji və ayrıca poetik mətnlərin obrazlılıq qaynağı bütün hallarda aşağıdakı uyğun səviyyələrdə təmsil olunur: 1. Zooloji səviyyə; 2. Landşaft səviyyəsi; 3. Astronomik səviyyə; 4. Predmet səviyyəsi; 5. Rəng səviyyəsi; 6. Say səviyyəsi.

Mifoloji mətnlər üçün qeyd olunan səviyyələrin hər birində mifolojidüşüncənin formalaşmasının ilkin qaynaqları mühüm rol oynamaqdadır. Nəzərdən keçirilən problemlərin məzmunu göstərir ki, mifoloji təsəvvürlərin ayrıca poetik bədii semantikası ilkin olaraq dil faktlarında izah oluna bilər. Qrammatik sahədə bədii-estetik müəyyənlik ardıcıl şəkildə konkret obraz yaratma səviyyələrində də özünü göstərir. Məna, məzmunun formalaşdırıldığı mətn makrostrukturlarının özəlliyi burada qoyulan problemlə bağlı həm də ifadəliliyin forma təlqinində aparıcı rol oynayır. Mifoloji və poetik təsəvvürün ortaq cəhətləri olaraq bu xüsusiyyətlər janrların ümumi poetikasını əhatə edən mürəkkəb sistemlə xarakterizə olunur.

**"İlkin mifoloji mətnlər poetik təcrübənin arxeformaları kimi (animizm, totemizm, fetişizm, magiya)"**adlandırılanbölmədəilkinşüurformalarınınfolklorqaynaqlarında – nəğmələrdəizlərimüəyyənləşdirilir. Mifçağındauluəcdad, ilknövbədə, yaşayıştərziilətəbiəthadisələrivəheyvanlaraləmiarasındaoxşarlıqgörmüş, həminaləmlərləözüarasındakıqeyri-adiəlaqəyətəsirgöstərməyəçalışmış, bununladanəhəng,vəhşicanlılartərəfindəngələntəhlükələrəqarşınikbinliyiniq oruyabilmişdir. Onlarınyaşamaquğrundamübarizəsininvətopladıqlarıtəcrübədəndoğaninancl arı "sınaqlardançıxaraq" yaddaşlarındamöhkəmləndikcətəsəvvürlərəçevrilmişdir. Uluəcdaddünyayahəmintəsəvvürlərinbaxışbucağı, yaxudpəncərəsindənbaxmışvəonlarsistemləşdirildikcətotemizm, animizm, animatizm, magiyavəkultmünasibətlərişəklinialmışdır.

İnsanlarınilkintəsəvvürləriinkişafınaşağıpilləsindəbirneçəmərhələdəv əbaşqa-başqaformalardatəzahüretmişdir:

Totemizm – ayrı-ayrıinsandəstələrinineləbirinancformasıdırki, icmaüzvlərininhərhansıbirheyvan, yaxudbitkiilə qan qohumluğununolmasınaəsaslanır. Xalq şeirində totemizm bu və ya digər

[1] Потебня А. Теоретическаяпоэтика. М.: Высщая школа, 1990, ст.296

canlıların arxaik düşüncəyə bağlı obrazlaşmasında  xüsusi poetik məzmun yaradır.

Animizm – ilkindinitəsəvvürlərinəsasındadayananinkişafmərhələsi olmaqlabütünvarlıqlardaruhunmövcudluğuinancınaəsaslanır. Məlumdur ki, hər bir etnik-mədəni sistemi digərindən fərqləndirən etnoloji əlamətlər vardır. Fərqləndirici amillərin ən öndə gələni isə mifoloji düşüncədir. Bu sıraya mərasimlər, bayramlar, adətlər – mədəni irsin başqa arxaik atributları da daxildir. Lakin dünyanı dərketmədə əldə olunan ilkin nəticələr köklə – çox dərin qatlarla bağlandığından əsas meyar rolunu miflər daşıyır. Başqa sözlə, bəzi oxşarlıq, yaxınlıq və səsləşmələr nəzərə çarpsa da, dünya xalqlarının hər birinin mifologiyadan keçən özünəməxsus mədəniyyəti, folklor ənənəsi, dünyaanlamı vardır. Animizmin düşüncə sistemi xalq şeiri janrlarından daha çox yas mərasim nəğmələri-ağılar və Yer ruhuna sələnmə-nəğmələrdə qorunub saxlanır.

Mifoloji düşüncəni səciyyələndirən fetişist təsəvvürlər də bu sırada ayrıca yer tutmaqdadır. Fetişizm “feitico”, “amulet”, “talisman” mənasını ifadə etməklə, xalq arasında həm də magiya, ovsun kimi işlədilməkdədir. Fetişizm hadisəsi, hər şeydən əvvəl, insanın təbiətlə qarşılaşmasında müxtəlif predmet və əşyaları illüstrativ, mistik şəkildə dərkidir. İbtidai insanın təbiət qüvvələri, canlılarla mübarizə şəraitində yaşaması, onlardan müdafiə olunma instinktivlərinin formalaşması və nəhayət, qalib gəlmədə psixoloji aktivliyinin fəallaşması nəticədə ayrı-ayrı predmetləri “fövqəladə keyfiyyətlərlə” düşünməyə əsas vermişdir.

İlkin təsəvvürlər sistemində magiya da ayrıca yer tutur. Qədim türk mifologiyasında maqiyanın “arpağ”, “azar”, ”bağı” və “büyü” ilə bağlı çoxsaylı ifadə formaları vardır. Ovsun mənasında işlədilən “arpağ” müəyyən dualar, sözlərlə bu və ya digər hadisə, vəziyyətə təsir göstərmək imkanını ifadə etməkdədir. Bu gün də xalq arasındakı bir çox ”arpağınan işini bişirdi”, “alınan-arpağınan yola verdi” kimi deyimlərdə sözün ovsunla bağlılığı qorunub saxlanmaqdadır. Sehr, ovsun mənasını verən “bağı” sözü də eyni mənaya bağlı türk, Altay mifologiyasında yer almaqdadır. “Bağlamaq” felindən törəyən “bağı” burada “qarşısını almaq”, “yolunu kəsmək”, “dil-ağzını bağlamaq” kmi mənalarda ayrıca funksionallıq təşkil etməkdədir.

İbtidai təsəvvürlər sisteminin ayrı-ayrı mərhələləri xalq inam və düşüncəsinin zəngin tarixi təsəvvürünə bağlanmaqla həm də şifahi yaradıcılığın ilkin qaynaqlarını bəlli edir. Xalq ədəbiyyatı, müxtəlif nağıl, dastan, qədim nəğmə, ovsun mətnləri və s. mövcud mifoloji obrazlar, bədii-

estetik düşüncədə qorunan poetiklik bütün hallarda eyni sistemin fərqli təsəvvürlərindən qaynaqlanır.

Dissertasiyanın **"Mifin poetikası və xalq poeziyasına transformasiyası"** adlanan bölməsində qoyulan problem mif və gerçəklik münasibətləri sistemini təşkil edir. Bu bölmədə Azərbaycan xalqının etnik mədəniyyəti tarixində baş verən hadisələrin mahnı folkloruna trasformasiyasının yolları nəzərdən keçirilmişdir. Belə ki, arxaik düşüncə sistemindən miflərin müxtəlif folklor janrlarına transformasiyası məsələsi mif laylarının, məzmununun, poetikasının və s. klassik strukturda bərpası mexanizminin problemlərini əhatə edir. Buraya mifin yaranması özəlliyi, zamanla təşəkkülü, arxaik dünya təsəvvürü formalarının (miksantropizm, fitomorf, zoomorf, antromorf və s.) müəyyənləşməsi, dini düşüncəyə keçidində məhvi, parçalanması və s. kimi mühüm məsələlərin geniş kompleksinin müəyyənləşdirilməsi başlıca rol oynayır. Mif motivlərinin folklor janrlarına transformasiyası məzmun və uyğun poetik təcrübə əsasında bərpa olunur. Konkret olaraq bu prosesin xalq şeirində transformaiyası daha çox Yaradılış panteonu, təbiət, totem təsəvvürlərindən irəli gələn kultların səciyyəsinə bağlıdır.

Mifin mətn transformasiyalarında diqqətdə saxlanılması vacib olan məsələlərdən biri də onların tarixi inkişafda götürülməsidir. Bu baxımdan insanın təbiətlə daha sıx təmasda olduğu dövrün eyni bir obraz üçün təsəvvür sistemi sonrakı mərhələdə fərqli düşüncədə formalaşa bilir. Mif rüşeymləri bəzi toponimlərdə xüsusi əlamət kimi kodlaşaraq yaddaşlarda yaşayır. Mağara, Yerliyin məkanı, Qaf dağı, Cənnət, Cəhənnəm, qaya və s. mifoloji məkan və yer adları folklor mətnlərində xüsusi toponim olaraq həm də tarixi baxımdan mifoloji obrazların xarakterini, xalq inanclarının qaynaqlarını müəyyən edir.

Mifin xalq şeirinə transformasiyasında mif quruluşunun forma dəyişikliyi məsələsi də vacib rol oynayır. Bu isə bilavasitə şifahi ədəbi ənənənin improvizasiyasını əhatə edir. Folklorun digər janrlarından fərqli olaraq, xalq şeirində improvizələr daha çevik formada həyata keçirilir.

Mifin xalq şeiri mətnlərinə transformasiyasının forma əlamətlərində alleqoriya və simvollar da bilavasitə iştirak edir. Əslində bu xüsusiyyətlər mifin ayrı-ayrılıqda qəbul olunan ifadə şəkilləridir.

Miflərin xalq şeirinə transformasiyasının strukturu, ilk növbədə, konkret şəkildə mifoloji düşüncə səviyyələrindən irəli gələn motivlərin bu mətnlərə assimmilyasiyasının forma və üsulunu əhatə edir. İkincisi, xalq şeiri şərti mif mətnlərinə, mif motivlərinə, mifoloji komplekslərə

dekonstruktiv yanaşmanı formalaşdırır. Hər iki halda mifin transformasiyası müvafiq modelləşdirmə mexanizmlərində ifadə olunur.

Dissertasiyanın II fəsli **“Xalq şeirinin mifik özəllikləri və janr sistemi” adlanır**. Bu fəsildə xalq şeiri janrları, onların tarixi inkişafda formalaşması, janr özünəməxsusuluğundan irəli gələn bədii-poetik özəlliyi və.s geniş təhlil olunur. Məlumdur ki, hər bir xalqın həyatında, məişətində və mədəniyyətində yer alan nəğmələr, müxtəlif mahnılar ilkin toplumların təşəkkülü zamanından başlayaraq böyük tarixi epoxanın daxilində formalaşmış və günümüzə qədər gəlib çıxmışdır. İlk insan cəmiyyətlərində təbiətlə sıx bağlılıq həm yaşamaq, həm də ətrafı öyrənə-öyrənə ona təsir göstərmək istəyi nəticə etibarilə arxaik nəğmə mətnlərinin yaranmasını şərtləndirmişdir. Əkin, ov, sağın, toxuma və s. sənət növlərinə sahibləndikcə insanlar iş şərtlərini ritmlər üzərində qurmuş, zamanla bu ritmlərə çağırış, intonasiyalılıq da qoşulmaqla ton təkrarlığını yaratmışdır. İş prosesinin təqlidində formalaşan amorf ritm daha sonrakı mərhələdə ritual kontkestində ladların informativliyini surətləndirmişdir. Təbiət sirlərinin ilk insanlar üçün dərk olunmaması göy cisimləri, yer qüvvələrinə xüsusi təsəvvür və düşüncə sistemindən yanaşmada özünün müvafiq söz və səs biçiminin ahəngli sintezini yaratmışdır. Söz və musiqinin semantik, funksional tərəflərdən arxaik birliyi elə bir şəkildə uyğunlaşmışdır ki, hətta bu mətnlərin öyrənilməsi bir çox araşdırmalarda mübahisələrə yol açmışdır. Bədii sistem daxilində nəğmələr dinamikasının təşkili, ifadə formaları, obrazlar sistemi və s. ilə mərasimlərə bağlanmaqla proqramlaşdırılmış səciyyə daşıyır.

**“Xalq şeirinin janr strukturu və mifopoetikası”** bölməsi Azərbaycan xalq şeirinin təsnifi prinsipləriniaraşdırmaqla başlanır. Xalq şeiri ilə bağlı təsnifatların aparılması lirik mətnlərin formalaşması tarixiliyi, mərasim kontekstliliyi, motivlər və s. prinsiplərə dayanaraq Azərbaycan folklorşünaslığında da geniş müzakirə mövzusuna çevrilmişdir. M.H.Təhmasib, P.Əfəndiyev, V.Vəliyev, A.Nəbiyev, B.Abdulla, R.Qafarlı və s. alimlər xalq şeirinin sistemli təsnifatını konkret tipoloji qruplaşmada olmaqla yanaşı, ayrı-ayrı lirik janrların mövzu-məzmun əhatəsində sistemləşdirmişlər. Təqdim olunan araşdırmamızda da aşıq yaradıcılığı istisna olmaqla xalq şeirinin tədqiqi əsasən aşağıdakı təsnifat üzrə aparılmışdır: 1. İbtidai peşələrə həsr olunan nəğmələr. 2. Ovsun nəğmələri. 3. Mərasim nəğmələri. 4. Lirik xalq mahnıları.

Fəslin**“İbtidai peşələrə həsr olunan nəğmələr mif yaradıcılığı təcrübəsinin poetik şəkilləri kimi”** adlananbölməsindəilkinşüurformalarınınibtidai poetik xalq yaradıcılığı

nümunələrindəizlərimüəyyənləşdirilir. Azərbaycan xalq şeirində ən qədim nəğmələr geniş peşə və fəaliyyətlərə bağlanmaqla əkinçilik, sağın, ovçuluq, balıqçılıq, toxuculuq, qalayçılıq, ipəkçilik və s. məşğuliyyətlərin iş prosesində yaranmışdır. İlkin peşə sahələrinə görə formalaşan iş nəğmələrinin mətn strukturu, janr xüsusiyyətləri, motivləri ortaq, ümumi cəhətləri ilə səciyyəvidir. Şərti olaraq analoji mətn parametrlərini, məzmun formalarını aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür: 1. İş prosesinin bağlandığı subyektin, obyektlərin seçilməsində onlara müraciət; 2. İş prosesinin səciyyələndirilməsi; 3. İşin nəticə və uğuruna bağlı arzulamalar, sınamalar və təsəvvürlər.

İlkin mərhələdə müraciətlərin fərqləndirilməsi iş növlərinə görə uyğunlaşdırılır. Eydirmələrdə inək, sayaçı sözlərdə qoyun, quzu, çoban, çoban iti, balıqçı nəğmələrində balıq, Yel baba, hana nəğmələrində kilim, ip, iplik, cəhrə və s. olunan müraciətlər burada həmçinin uyğun ritmik səslənmələrlə müşahidə edilir. “Dütüm” (eydirmələr), “ho” (holavarlar), “hu”, “yahu” (balıqçı nəğmələri) və s. qəbildən olan səslənmələr mətnlərdə yalnız çağırış forması deyil, bəlli mifik düşüncənin səs elementi, variantı olaraq da seçilir.

İbtidai peşələrə həsr olunan nəğmələrin təşkilində yer tutan ikinci mühüm mərhələ – iş prosesinin səciyyələndirilməsi, işçi qüvvə – istər əməkçi, istərsə də əmək alətinin vəsfi, onların birgə fəaliyyəti, məhsuldarlığın əmək sərfinə bağlanması və s. məsələlərin mövzu obyektində seçilməsidir.

Sonuncuda isə işin nəticəsinin gözlənilməsi istiqamətində insanın yaşayış, həyat şəraitinin dəyişməsinə bağlı arzuları yer almaqdadır ki, nəğmə mətnlərində davamlı şəkildə iş icraçıları – əməkçi və əmək vasitələrinin uğurlanması ifadə olunur.

İbtidai peşələrə həsr olunan nəğmə mətnlərində məzmun formalarından asılı olaraq bir sıra mifoloji obraz və motivlər arxaik forma, şəkildə qorunub saxlanmaqdadır. Burada heyvan qoruyucu iyələri ( “Ho”), su tanrıları (“Yahu”) və s. obrazların funksionallığı xüsusilə seçilir.

**Əkinçi nəğmələri.** İbtidai peşələrə həsr olunan nəğmələr içərisində iş prosesi, mətn strukturu, bədii-estetik səciyyəsi baxımından əkinçi nəğmələri xüsusilə seçilir. Öz təsərrüfatını torpağın şumlanması, əkib biçilməsi üzərində quran əməkçi insan zamanla bolluq, bərəkətin artırılması qayğısına qalmış, becərilən torpaq onun dirriyi, yaşam vasitəsinə çevrilmişdir.

Torpağın müqəddəs sayılması, onun əkib-becərilməsi ilə bağlı bir çox inanclar, mərasimlər özünün arxaik rituallarını uyğun nəğmə mətnlərində saxlamaqdadır. Torpağa, şum prosesinə qoşulan nəğmə

mətnlərinin bir çoxunda torpaq ilahəsinə səslənmə, ondan kömək diləmək üzərində qurulan rituallar başlıca yer tutur. Tarixən torpaq ilahəsi Ərmaita şərəfinə keçirilən İsfənd cəmləsinin ritual məzmunu da bilavasitə yer tanrısının razı salınması, yer ruhunun oyadılması inancına bağlı olmuşdur:

Yer, yer, gücümü ver,
Boz öküzün gücünü ver.
Qara bəndin gücünü ver,
Əlim üstə gücünü ver,
Hu...hu...hu....hu.[1]

Xalq arasında geniş yaılmış "ruh tutma" rituallarından götürülən bu nəğmə mətninin oxşar formasına Tatar türklərinin mövsüm törənlərində oxunan nəğmələrdə rast gəlirik:

Yer, yer, gücümü ver,
Bir yaşlık tayın gücünü ver.
Aitın elma rengini ver,
Altı atımın küvvetini ver,
Altmış araba çavdar ver,
...Ver, ver, həpsini ver,
Yer! Yer![2]

Öz mifik təsəvvüründən ayrılmayan insan bu nəğmə mətnlərində sınama və inanclarına arxalanaraq əmək prosesini, gördüyü işi tənzimləyir, fəallaşacaq tanrı - məbudlara səslənməklə fiziki gücünü fövqəl qüvvənin enerjisi ilə birləşdirir.

**Saya nəğmələri.** Heyvandarlığın xalq məişətinə daxil olub ulu əcdadın təsərrüfat həyatının ayrılmaz hissəsinə çevrilməsi, hər şeydən əvvəl, bu sahənin əməkçiyə verdiyi mənfəətlə bağlı idi. Xüsusilə, qoyunçuluğun məişətdə əsas əmək fəaliyyəti kimi formalaşması, zamanla geniş təsərrüfat sahəsini əhatə etməsi nəticədə iş prosesinə bağlı uyğun nəğmələr – sayaçı sözlərini yaratmışdır. Sayaçı nəğmə mətnləri əsasən aşağıdakı məzmunda motivləşir: 1. Qoyunun məişətdə rolunun səciyyələndirilməsi. Buraya xüsusilə qoyunun yunundan istifadə və qida-azuqənin alınmasına bağlı nəğmə mətnləri daxildir; 2. Qoyunların cütlənib sayılması ilə bağlı nəğmələr; 3.Sahiblik – sahiblənmək mənasında davarla ünsiyyətin qurulmasını əks etdirən nəğmələr.

---

[1] Hüseynova Mədinə Bayram qızı. 1926-cı il təvəllüdlü, Füzuli rayonu, Mahmudlu kəndi, hal-hazırda Füzuli rayonunun Əhmədbəyli kəndində məskunlaşıb, savadsız.
[2] Çulpan Zarıpova Çetin. Tatar türklerinin mevsimlerle ilgili gelenekleri. "Türk Dünyası Araşdırmaları" dergisi, (Kasım-Aralık, 2004) s.123-143 // http://www.turukdergisi.com/PdfMakaleGoster.Aspx?ID=49

Qoyun-quzu təsərrüfatını məişətinin başlıca məşğuliyyətinə çevirən əməkçilər zamanla fəaliyyətlərinin uğurlanması üçün müvafiq mərasimlər keçirmişlər. "Saya" adlandırılan bu mərasimdə başlıca məqsəd dölün başlanmasına qədərki hazırlıqdır, eləcə də kənd-kənd, oba-oba gəzməklə xəbərdarlıq etməkdir. Xüsusi dəstə kimi təşkil olunan sayaçıların qapı-qapı, oba-oba gəzərək özlərini tanıtmaları mərasim nəğmələrinin ilkin mərhələsini təşkil edir. Mərasimdə pay, qoyun-quzu toplamaqla ardıcıl olaraq dölün uğurluluğu, bolluq, bərəkət arzulanması ilə bağlı nəğmələr oxunur.

Qapılara qoyun sürüsü, yaxud keçi qucağında yanaşma "sayanın üstə gəlmə" inanc-təcrübəsini ifadə edir. "İşin avandlığı"nı diləmə mərasimdə saya alqış, duaları üzərində qurulur:

Qurumasın gölünüz,
Ürə gəlsin dolunuz,
Gödəlməsin boyunuz,
Kəsilməsin soyunuz.
Sayanın üstə gəlsin,
Üstündə püstə gəlsin[1].

**Eydirmələr.** İbtidai peşələrə həsr olunan nəğmələrin tərkibində eydirmələr də öz səciyyəviliyi ilə seçilir. İnəyin sağına hazırlanması, heyvanın əzizlənməsi, bol süd arzulama və s. bu lirik mətnlərin başlıca məzmununu təşkil edir. Nəğmələrin "eydirmə" adlandırılması sağının xalq məişəti dilindəki deyiminə əsaslanır. Azuqə, ruzusunu inəyin məhsuldarlığı üzərində quran insan zümzümələrində heyvana "anam", "bacım", "nənəm" deyə müraciət etmiş, inəyə olan qayğı və istək üzərində öz primitiv mahnılarını yaratmışdır. Heyvanın sağlamlığını, dolün uğurluluğunu, südün bolluğunu arzulayan davar sahibləri zamanla bu istəklərinə bağlı inanclarını formalaşdırmışdılar: "Örüşdən qayıdan mal-heyvanın qabağına əldə süpürgə ilə çıxmazlar, bərəkəti qaçar"; "Təzə doğan inəyin ağız südünün ilkini sağıb yerə axıdarlar ki, südü çox olsun"; "Süd olan ocaqdan bozqa bir adam od götürərsə ocaq sahibinin heyvanı ölər"; "Qaynar süd altında kabab bişirənin heyvanı ölər"; "Boğaz heyvanı olan həyətdə kösöv oynatmazlar", "Bişirəndə süd daşarsa, ocağa duz atallar ki, süd verən malın yelini gəlməsin" və s. kimi inanclardan, sınamalardan da göründüyü kimi, əməkçi insan heyvanın sağlamlığı qayğısına qalmağa çalışmış, hətta heyvanını bəd nəzərdən uzaqlaşdırılması üçün uyğun magik vasitələr də seçmişdir.

[1] Güney Azərbaycan folkloru. IV kitab. (tərtib edənlər: fil.ü.f.d. Mətanət Maşallah qızı (Abbasova), Dr. Hüseyn Şərqidərəcək (Soytürk), Bakı, Elm və təhsil, 2015, s.355

**Ovçuluq nəğmələri.** Azərbaycan xalqının ibtidai peşələrə həsr olunan nəğmələrinin xüsusi bir qrupunu ovçuluq nəğmələri təşkil edir. Ovçuluğun yaranması, ibtidai insanın gündəlik məşğuliyyətinə çevrilməsi daha qədim tarixi dövrlərə bağlanmaqla onun ətraf, təbiətin yırtıcılarından qorunma, eləcə də azuqə əldə etmək niyyətindən qaynaqlanmışdır. Azərbaycan xalqının arxaik ovçuluq nəğmələrinin yaranması oxşar tarixi, sosial şərtlərdən keçmiş, mətn strukturu, mifoloji qatı uyğun təsəvvürlər əsasında formalaşmışdır. Sözün ovsun gücünə inam, əmək alətində olduğu kimi, ov silahlarının da təbiətinə müdaxilə imkanında götürülmüş, ilk nəğmələrin motivləri məhz silahın ovsuna gətirilməsinə bağlanmışdır:

Haş gedə,
Huş gedə,
Bu ox sənə
Tuş gedə[1].

Ovçuluq nəğmələrində qəlib rolunu oynayan bu söz – ovsunlar zamanla ayrı-ayrı uyğun mətnlərdə işlədilmişdir. Ovçuluqla bağlı tabular, mifik görüşlər, inam və sınamalar, rituallar bu lirik mətnlərin struktur semantikasında tarixi düşüncə və dünyagörüşü faktı kimi qorunmaqdadır.

**Balıqçı nəğmələri.** Ovçuluqla bağlı xalq nəğmələrinin sırasında balıqçı düzgü-mahnıları da ayrıca mərhələ təşkil edir. Dəniz hövzəsi ətrafında yaşayan insanlar zamanla məşğuliyyətlərini sulardan balıq ovlanmasına yönəltmiş, nəticədə peşə fəaliyyətinin ayrıca növünü formalaşdırmışdılar. Digər nəğmələrdə olduğu kimi, bu qrup nəğmə mətnləri də ov prosesi, onunla bağlı sınama, inam, təsəvvürlərin motivləri üzərində qurulmuşdur. Balıqçı nəğmələrinin mətn strukturunda xüsusi səslənmələr "hu", "yahu" üzərində möhkəmlənməklə nəğmələrin müraciət, giriş hissəsi, eləcə də nəqarətlərin tamamlanmasında mətnlərə qoşulur:

Röyyama girdi , yahu,
Sirrimi bildi , yahu,
Dəryalara tor atdım
Üzümə güldü, yahu....
Yahu, hu, hu,
Hu, hu, yahu....[2]

**Hana nəğmələr.** Xalq peşələri silsiləsində toxuculuq sənəti də geniş yayılmış iş növlərindəndir. Hələ qədim zamanlardan başlayaraq Azərbaycan qadınları mal-heyvan, davar təsərrüfatından əldə olunan

---

[1]Azərbaycan Folkloru Antologiyası. XVII kitab- Muğan Folkloru ( Tərtib edən, redaktoru və ön sözün müəllifi : Hüseyn İsmayılov), Bakı, Nurlan, 2008, s.73
[2] Nəğmələr, inanclar, alqışlar... (Toplayıb, tərtib edən: prof. A.Nəbiyev), Bakı, Yazıçı, 1986, s.41

yundan xüsusi vasitələrlə ipliklər əyirmiş, müxtəlif bitki köklərindən boyaq əldə edərək bu iplikləri rəngləmiş, nəhayət hana quraraq xalı-xalçalar toxumuşlar. Uzun qış gecələri, ocaq kənarında dinlədikləri nağılları çox zaman hana toxumaqla əvəzləmiş, xalq düşüncəsinin etnik ornament və rəmzlərini söz yaddaşından təsvir dilinə çevirmişdilər. Toxucu mahnılarının iş prosesindəki ardıcıllığı nəticədə müxtəlif nəğmə qruplarını yaratmışdır: 1. Daraq haqqında nəğmələr; 2. Cəhrə haqqında nəğmələr; 3. Boyaqçı nəğmələri; 4. Hana nəğmələri; 5. Keçəçi – həllac nəğmələri; 6. İpəkçi-kümçü nəğmələri; 7. Parça toxunması ilə bağlı nəğmələr[1].

Hana toxuyan qadın-analar bir ilə başa gələn iş prosesində zümzümə etdikləri nəğmələrə öz məişət qayğıları, düşüncə və arzularını da qatmaqla hananı yaxın həmsöhbətlərinə çevirmişlər ki, uyğun nəğmə mətnlərində bu motiv daha geniş şəkildə yayılmışdır.

**“Mifoloji ritmika və ibtidai peşələrə həsr olunan nəğmələrin ritmik-melodik strukturu”** bölməsində mifik düşüncənin əsasında duran əsas amillərdən biri – qeyri-adilik, fövqəltəbiilik, müqəddəslik təhlil olunur.

Mifdə hər şeyin bir nöqtədən başlanması və həmin nöqtədə tamamlanması ilə yaranan ritm arxaik nəğmələrdə də özünü göstərir. Belə ki, miflərdə hər şey spiralvari şəkildə təkrarlanır. İlkin iş nəğmələrinin formalaşması da konkret olaraq müəyyən söz, musiqi ritmikliyinə əsaslanır ki, burada hər iki sənətin sinkretik inkişafı müəyyən mərhələlərdən keçir. Nəğmələrin strukturu bütün hallarda üç başlıca tərəflə müəyyən olunur[2]: 1.Semantik (obrazlı-bədii); 2. Funksional (kompozisiyalı); 3. Genetik (təkamül).

Müxtəlif iş nəğmələrinin mətn strukturunda ritmiklik yaradan, lakin xüsusi məna ifadə etməyən müəyyən səslər, səs kombinasiyaları vardır ki, bu təkrarlar bir çox hallarda ibtidai təsəvvür və düşüncələrin qaynağında öz arxaik məzmununa bağlanır. Qədim iş nəğmələri- holavarlarda “ho”lar insanı arzusuna qovuşduran səadət və xoşbəxtliyə gətirən müqəddəs varlıqlar kimi tərənnüm edilir:

... “Ho”lara dilək
Etdim.
Sübh üstü murada
Yetdim...[3]

[1] Alarlı B (Hüseynov). Toxucu nəğmələri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər – XXXVII, 2012, s. 95

1.БанинА.А. Кизучениюрусскогонародно – песенногостиха: Методологическиезаметки //Фольклор поэтика и традиция. Академия наук СССР. Институт мировой литературы имени. А.М.Горького. М.: Наука, 1982, ст.99

[3] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, 2 cilddə, I c. Bakı, Turan, 2002, s.223

Digər əski mövsüm nəğmələrində olduğu kimi, bu nəğmələrdə də insan öz işini, əməyinin uğurlanmasını fövqəl bir himayəçi, sahibə bağlamağa çalışmış, bununla da dualarının mifoloji yönünü bəlli etmişdir. Nəzərə alsaq ki, qeyd olunan nəğmə mətnində "ho"nun işarəvi yükü daha çox öküzlə əlaqədardır, o zaman bu müraciətlərin uyğun totemdə izahı da məqsədə müvafiqdir.Balıqçı nəğmələri qrupunda da bu silsilədən olan səslənmələr "hu...hu..." təkrirləri üzərində cəmləşdirilir. "Hu"-nun nəğmə mətnlərində davamlı təkrarı Allahın zikr olunmasında işarəvi funksiyaya malikdir. Yardım, dilək üçün söylənilən bu ifadələr bir çox mətnlərdə bilavasitə Allahın adlarından biri kimi ifadə olunur. Azərbaycan bayatılarından fərqli olaraq, Ərzurum ninnilərinin böyük bir hissəsi "hu" giriş-başlanğıc səslənmələri üzərində formalaşmışdır.

Xalq məişətində inəyin sağına hazırlanması, yaxud öküzün səpin – biçin üçün tarlaya çıxarılması uyğun müraciət - səslənmələrdə əslində işçi qüvvəsinin bir araya gətirilməsindəki işarəvi səs təliminə bağlıdır. İş prosesində xüsusi funksionallıq qazanan bu səslənmələr danışıq dilindən nəzmə keçdikdə artıq ayrıca təkrar qruplarda cəmlənməklə nəğmə mətnlərinin formalaşma mərhələsində nəqarətlər şəklində ümumi struktura qoşulur. Əslində iş əsasında daha çox heyvanın təliminə yönələn bu səs - işarələri daha sonralar müstəqil söz, ifadələrə qoşulmaqla nəğmə mətnlərini formalaşdırmışdır. Aydın fikir, geniş hecalı nəğmə mətnlərinin "solo"su nəticədə söz konstruksiyalarına keçmiş, əski səs variantları, qəlibləri isə nəqarət, yaxud əsas mətnin təkrar elementi olaraq formalaşmışdır.

Qədim peşələrlə bağlı yaranan nəğmələrin şeir formalarının ritm quruluşu qeyd olunan proseslərə uyğun olaraq tonik, intonasiyalı ritm üzərində formalaşaraq arxaik mahnı mətnlərinin quruluşunu sərgiləyir. Eyni zamanda paralelizm formaları burada həm də obrazdan çox hadisə, hərəkətlərin fəaliyyət paralelizmində müşahidə olunur.

**"Ovsunlar xalq şeiri kimi və onların magik-mifoloji strukturu"** adlandırılan bölmədə xalq lirikasının ən qədim şəkillərindən olan ovsun mətnlərinin mifik düşüncədə formalaşması, dəyişmə və inkişaf xüsusiyyətləri araşdırılır. İbtidai insanın bir-birini anlamaq, yardım göstərmək və s. funksiyasının aparıcı vasitəsinə çevrilən səsli-təqlidi işarədən sözlü nitqə keçid onların bilavasitə təbiət, təbiət qüvvələrinə təsiri və sığınması ehtiyacından qaynaqlanır. Tarixi müşahidələr göstərir ki, bəlli tarixi dövrün insan nəsli olan neandertallar aclıqla yanaşı, düzgün ünsiyyət qurmamaları nəticəsində tayfadaxili münaqişələrin artması ilə sivilizasiya tarixindən silinmiş, öz yerlərini müasir insan nəslinin ilk qruplarına vermişdilər. Yaşamaq uğrunda mübarizə, öz təsərrüfatına sahiblik gücünün

formalaşması insanın qorunma instinktini qorxu hissində fəallaşdırmaqla sözün magik gücünü aktivləşdirərək ovsunların yaranmasını şərtləndirmişdir.

İbtidai dövrün təbiət, ətraf aləmlə bağlı magik təsəvvürləri zamanla sosiallaşan toplumlarda daha fərqli forma və şəkildə inkişaf etmişdir.

Ovsun mətnlərinin strukturu həm də mərhələliyi ilə seçilir. Şərti olaraq ovsunun icrası aşağıdakı ardıcıllığa əsaslanır:

1. Ovsun obyektinin seçilməsi və ona müraciətlər;
2. Ovsunun əfsanəvi, fantastik, mifik güc, enerjiyə istinadı;
3. Ovsunun xahiş, yaxud imperativ üsulla çağırılması;

Mətn polifoniyası sözsüz ki, məqsəd və intonasiyaya görə dəyişən söyləmələr, deyim çalarlarında öz ifadəsini tapır. Ovsun nəğmə mətnlərinin strukturu, semantikası formal vasitələr əsasında daha çox aşağıdakı əlamətlərlə ifadə olunur:

1. Ovsun icrası üzərində qurulan təkrarlar;
2. Ritm və intonasiyaya uyğun işlədilən ədatlar;

Nitq funksionallığında təsvir və mühakimlər ovsun nəğmə mətn tipləri üçün xüsusilə xarakterikdir.

**"Mərasim nəğmələrinin poetikası mif-ritual sintezi konteks-tində"**adlandırılan bölmədəAzərbaycan xalq şeirinin xüsusi bir qrupunun formalaşmasının, ifa şəkillərinin bilavasitə rituallar əsasında həyata keçirildiyi əsaslandırılır.

Rituallarda qeydə alınan nəğmələrdə etnosun ilkin təsəvvür, ailə-əxlaq normativ və təcrübələri toplanmaqla varlıq haqqında düşüncələrin daha arxaik sisteminə bağlıdır. Ritualların mif modelində formalaşması, bu münasibətlərdə onların hər hansı birinin ilkinliyi, sintezi və s. məsələlərin öyrənilməsi folklorşünaslıqda müəyyən mübahisə, çoxsaylı elmi araşdırmalara yol açmışdır. Mifdə ritualın "proyeksiyası", ritualın mifin sonrakı rolunu ifadə etməsi və nəhayət mif və ritualın paralel mövcudluğu məsələləri T.N.Caster, S.Kamenski, V.Y.Propp, D.K.Zelenin, B.A.Rıbakov kimi tədqiqatçıların əsərlərinin başlıca istiqamətlərini təşkil etmişdir. Mifin ritualla sintezi ilkin dünyagörüşünün mərasimlərdə canlandırılması kimi ibtidai insanın məişətinə daxil olmuşdur. Mifin ritualın daha sonrakı forma şəkli kimi qəbul edildiyi (C.Freyzer) görüşlərdə onun ritualların aradan qaldırıldığı zamandan etibarən din və sənətdə yaşaması əsaslandırılmışdır. Mif müxtəlif simvolik biçimlərdə sənətə transformasiya olunmaqla ritualdan ayrılaraq tarixi hadisəyə çevrilmişdir.

Ritual bütün hallarda konkret vəziyyət, hadisə, görüşün nizamlanmış, dramatik şəkildə ifadəsidir. Ritualın söylənən tərəfinə çevrilən mif şərti

mənada orijinal məzmununu ritual daxilində həm də simvollaşdırır. Ritualların ilkin insan cəmiyyətlərindən başlayaraq müasir günümüzə qədər formalaşaraq qorunması bu kontektsdə arxaik toplum və tarixi ritualları fərqləndirməkdədir. Daha çox qurban ayinlərinin aparıldığı arxaik rituallar ilkin mövsüm, mərasim törənlərinin funksionallığına bağlıdır.

**"Mövsüm mərasimi nəğmələrinin mifopoetikası"** adlanan yarım bölmədə "Yel"lə bağlı nəğmələrin struktur-semantik xüsusiyyətləri, "Yağışı dəvət", "Günəşi dəvət", "Xıdır Nəbi", Novruz mərasimi nəğmələri araşdırılır.

Mövsüm mərasimlərinin adlarından da məlumdur ki, təbiət hadisələri, kosmik cisim bilavasitə qeyd olunan törənlərin başlıca mifoloji obrazlarıdır. Bu mərasim nəğmələrinin struktur tərkibində mifoloji obrazların fəallığı, funksional göstəriciləri, ayrıca personaj və obraz olaraq mətnin ideya-bədii həllində iştirakı mətnlərin poetik müəyyənliyində başlıca yer tutur.

Türk mifoloji düşüncəsində **yel**, külək ilk olaraq dünya- kosmosun bərpasında başlanğıc stixiyaları hərəkətə gətirən nizamlayıcı funksionallığa malikdir. Belə ki, Novruz törənlərindən yel çərşənbəsində yel torpağın dirilməsində od, su, torpaq enerjilərini bir araya gətirməklə bu vəzifəni tamamlayır. Xəstəliyin, şər, qara qüvvələrin insan bədəni, müxtəlif yer, ocaqlardan qovulması şaman-qam mərasimlərində yelin mifik güc, enerjisi hesabına rituallara qoşulur.

Məhsuldarlığın azalması, əkinin, torpağın məhvinə gətirib çıxaran quraqlıq, uzun müddət ara verən yağışlar, bu məzmunda ayrıca mərasim və ayinləri formalaşdırmışdır. **"Yağışı dəvət"** mərasimi xalq məişətinin ən qədim törəni olmaqla mifik düşüncə, məişət sınamaları əsasında yaranmışdır. İnsanın təbiət müstəvisində təbii mühitə, ən əsası havanın idarə olunmasına bağlı magik enerjisi bu mərasimin başlıca semantik-strukturunu müəyyənləşdirməkdədir.

Azərbaycan folklorunda "Yağışı dəvət" mərasiminin ritual görüntülərinin əks olunduğu "yada nəğmələrin"də tanrı – Yada xatırlanır, ona müraciət və xatırlamalarda məbud insan cildində təsvir edilir:

…Yadam baş daşdıyıb,
Yadam daş daşdıyıb,
Yadam az aşdıyıb,
Yada, Yada, Yada gəl,
Yada, Yada, Yada gəl…[1]

---

[1] Novruz bayramı. (Toplayıb, nəşrə hazırlayan A.Nəbiyevdir). Bakı, 1990. s.27

Bu mərasimdə ayrıca Naxçıvan ərazisində taxta çömçə qadın şəklində bəzədilərək "Çömçəxatun" [1]., Türkiyədə "Yağmur gəlini" [2], Dərbənddə isə "Quldil" müqəvvası[3] tanrı, ilahənin simvollaşdırılmış obrazı olaraq diqqəti çəkir. Kərkük dolaylarında mərasimdə paralel şəkildə"Kosa", "Qodu", "Çəmçələ qız " bəzədilərək xüsusi geyimlərlə ayinə çıxarılır. Qeyd olunan mərasimdə ən mühüm ayin ovsun nəğmələrinin oxunması, eləcə də icra olunan qurban rituallardır.

Təqvim mərasimlərindən olan **"Günəşi çağırma"** törənləri daha qədim düşüncə və təsəvvürlərə bağlanmaqla zəngin mifo-ritual xüsusiyyətləri ilə seçilir. "Qodu-qodu" ayininin təşkili, icrasında müşahidə edilən rituallar, mifoloji görüntülər, ilk növbədə, Günəşin özünün ibtidai insan düşüncəsindəki əski təsəvvürlərinə bağlıdır. Azərbaycan kosmoqonik miflərinin əksəriyyəti Günəşin yaranması motivinə əsaslanmaqla, bu yaradılış analoji olaraq canlı varlıqların təkamül və inkişaf proseslərini əks etdirir. Daha çox antropoloji xüsusiyyətlərlə obrazlaşdırılan mif və əfsanələrdə Günəşin qadın, ana, başlanğıc, bacı, bəzi variantlarda isə kişi kimi təsvir olunması əsasdır. İşıq, istilik, həyatı simvolizə edən günəşin kosmoloji atributları bu baxımdan ona sitayiş edilməsinə qədər böyük düşüncə təsəvvürünə yol almışdır. Xalq yuxu yozumlarında Günəşi görmək, onun işığında dayanmaq – sevinmək, şadlanmaq, emosiya – proqnozunda yozulmaqdadır. Günəşin əski təsəvvürlərdə qorunan bu mifoloji funksionallığı onun dəvəti ilə bağlı xalq arasında geniş yayılmış ayrıca mərasim, ayinlərdə qorunub saxlanmaqdadır. "Günəşi dəvət" mərasiminin başlıca mifik qüvvəsi "Qodu" obrazıdır. "Qodu-qodu" ilə bağlı nəğmələrin mətn strukturu eyni adlı mifoloji obrazın çağırılması, dəvətindən başlayaraq "Qodu"nun funksional xüsusiyyətləri, ona yanaşma və fəaliyyətləri əhatə edir. İlkin pillə çağırış və dəvət üzərində qurulur, digər tərəfdən, obraz təlqini bu mətnlərdə günəşin yaranması, onun mifik düşüncədə qorunması motivində öz əksini tapır. Uşaq təkərləmələrində "Gün çıx, gün çıx!..Təkər atı min çıx" müraciətləri üzərində qurulan nəğmələrdə Günəş antropomorfizmi, onun mifdən irəli gələn qızıl arabayla göy üzünü dolaşması, yeri işıqlandırması və.s obrazlaşdırılması yer almaqdadır.

---

[1] Azərbaycan Folkloru Antologiyası: V kitab – Qarabağ folkloru / Toplayanı: prof. İ.Abbaslı, T.Fərzəliyev, N.Nazim. Bakı, Səda, 2001, s.4

[2] Öndər Ə. Yağmur duasından ana tanrıya // Türk folkloru araşdırmaları jurnalı. Ankara, 1982, №2. s.16

[3] Azərbaycan Folkloru Antologiyası: XIV kitab – Dərbənd folkloru / Toplayan və tərtib edənlər: H.İsmayılov, S.Kurdamiyeva, T.Orucov. Bakı, Səda. 2006, s.237

Yaz mərasimi nəğmələri folklorumuzda qışdan yaza çıxan torpağın isinməsi, əkinçinin şuma hazırlığı, təsərrüfat işinə başlaması və s. fəsillərin qarşılanıb, uğurlanması, məişət əmək məşğuliyyətləri əsasında yaranmışdır. Yazın, geniş mənada Günəş, istiliyin arzulandığı çillə nəğmələri, **"Xıdır Nəbi"** mərasimi, nəhayət **Novruz törəni** nəğmələri bu sistemdə müəyyən ardıcıllıq təşkil edir. Böyük və Kiçik Çillənin çıxması, uğurlanması, yazın qarşılanması motivində folklorumuzda bir sıra ənənəvi – "Martla Qarının deyişməsi", "Böyük Çillə ilə kiçik Çillənin mübahisəsi" və s. nəğmələr mövcuddur. Çillə nəğmələrinin şifahi ədəbiyyatda ən geniş yayılmış nümunələri kiçik çillənin çıxması münasibətilə keçirilən "Xıdır Nəbi" mərasim nəğmələrində toplanmışdır. "Xıdır Nəbi", "Xızır", "Xızır İlyas", "Xızır Əlləz" və s. mifoloji mətnlərində yer alan bu obraz ölüb- dirilmə mifologeminə bağlı türk mifologiyasında hami, ruh, sahib kimi təsəvvür edilmiş, islam mifoəsatiri qaynaqlarında isə övliya olaraq qəbul edilmişdir. Xıdırla bağlı nəğmə mətnlərində onun su və od stixiyasına bağlı uyğun mifoloji özəlliyi əks olunmaqdadır:

Xıdır, Xıdır, od gətir,
Var dərədən od gətir.
Mən Xıdırın nəyiyəm,
Bir balaca dayıyam[1].

...Çiynində sel güldü,
Başında tel güldü.
Dar günü atdı gəldi,
Ağ ata yatdı gəldi.[2]

Təbiətin oyanışı, xeyirxah ruhların təsərrüfatın uğurlanması üçün bir araya gətirilməsi, ata-baba ruhlarını qarşılama, ovsunlarla bərəkət-bolluğun təmin edilməsində qabaqlayıcı tədbirlərin görülməsi və s. bağlı türk xalqları arasında ən geniş yayılmış belə mərasimlərdən biri Novruz günləri, törənlərinin keçirilməsidir." Novruz" mərasimi nəğmələrinin mifoloji kökləri, poetik strukturunda isə yel, od, su, torpaq kultlarına bağlı ilkin təsəvvür və düşüncələr başlıca yer tutur, eyni zamanda mərasim ritalları "Kosa", "Keçəl"lə bağlı xalq oyun, tamaşaları ilə birlikdə həyata keçirilir. Oyun personajları haqqında oxunan nəğmələrdə onların günəş, od kultu ilə əlaqəliliyi obrazların bolluq, bərəkət, uğuru simvollaşdırmasına bağlanır.

**"Məişət mərasimi nəğmələrində sinkretiklik və improvizasiya"**adlandırılan bölmədə xüsusilə yas mərasimi nəğmələrinin mifopoetikası, toy mərasimi nəğmələrinin janr xüsusiyyətləri və

---

[1] Azərbaycan Folkloru Antologiyası: V kitab – Qarabağ folkloru / Toplayanı: prof. İ.Abbaslı, T.Fərzəliyev, N.Nazim. Bakı, Səda, 2001, s.47

[2] Nəğmələr, inanclar, alqışlar / Toplayan və tərtib edən: A.Nəbiyev. Bakı, Yazıçı, 1986, s.17

mifopoetikası, eləcə də xalq mahnılarının forma və məzmun xüsusiyyətləri təhlil edilir.

Azərbaycan mərasim folklorunun ən zəngin qollarından birini **yas mərasimləri** təşkil edir. Tarixən xalqın mifoloji düşüncəsindəki insan-dünya-ölüm üçlüyü əsasında maraqlı ritual davranışlar formalaşmış və uyğun stereotipləri ağı mətnlərində öz bədii ifadəsini tapmışdır. Bu nəğmələr əsasən ritm, intonasiyaya bağlı müraciətlər üzərində qurulur, dil ekspressivliyi xüsusilə təbiət elementlərində bədiilik qazanır. Ayrıca mətnlərində ilan, mifoloji Əzrayil və Fələk obrazlarına müraciətlər və simvollaşma xüsusilə zəngindir:

Məni vurdu uç ilan,
Yumurtası puç ilan.
Mənim kimi olmasın
Zəmisi göy biçilən.[1]

Mən aşiq məzə qanlı,
Mey qanlı, məzə qanlı.
Əzrayil ova çıxıb,
Əlləri təzə qanlı[2].

Ağı mətnləri melodik quruluşu baxımından bayatı formalı və şivən tipli yas nəğmələrinə ayrılır. Birinci qrup nəğmələrdə ağılar konkret misra quruluşu, heca ölçüsünə malik bayatı janrı üzərində söylənilir. Şivən tipli ağı mətnləri isə vəzn etibarilə sərbəstdir və mətn improvizasiyaları məzmunda dominantlıq təşkil edir. Şivənlərdə poetik mətnlərin improvizasiyası bir çox hallarda şeirdəki həmqafiyəliliyi pozur, musiqi ayrıca reçitativ deklamasiya xarakteri daşıyır.

Ağıların poetik strukturunda diqqət çəkən məqamlardan biri də ritual nitqinin ekspressivlik çalarlarının qüvvətləndirilməsi üsullarıdır. Bu mətnlərdə ritorik suallar, təkrarlar, nəqarətlər janrın struktur göstəricisi olaraq seçilir.

Azərbaycan mərasim folklorunun ən geniş yayılmış örnəkləri sırasında **toy törənləri** xüsusilə secilir. Toy mərasim nəğmələrinin özəlliyi xalq düşüncə və təcrübəsindən qaynaqlanan sınamalarla zəngindir, məhəbbət-intim motivli ovsunların da qatıldığı mürəkkəb bir sistemə malikdir. Azərbaycan toylarının ənənəvi adət-ənənələrə bağlılığı mərasimin bir neçə mərhələdə təşkili və icra olunmasını müəyyənləşdirir. Elçilik, nişantaxma, nişanlı qızla bayramlaşma, qız toyu (bəzi bölgələrdə "paltar biçdi", "paltarkəsdi"), xınayaxdı, qız köçürmə, oğlan toyu və s. şəklində icra olunan mərasimlərdə hər bir mərhələ digərindən fərqli ritualları ilə seçilir.

---

[1] Həsənova Nübar. 1926-cı il təvəllüdlü, Cəbrayıl rayonun, Çərəkən kəndi, təhsilsiz..
[2] Bayatılar / Toplayan və tərtib edənlər: V.Vəliyev, S.Paşayev. Bakı, Yazıçı, 1985, s.21

Azərbaycan toy mərasimləri çalğının, musiqinin müşayəti ilə həm də nəğmələr üzərində aparılır. Toy mərasimləri mərhələlərlə icra olunduğundan oxunan nəğmələrin mövzu və məzmun əhatəsi çox genişdir. Məhəbbət, sevgi hissləri, gənclərin aşiqanə duyğuları, öyüd, nəsihət üzərində qurulan nəğmə mətnlərini və s. bu sırada şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Nişan mərasimində oxunan nəğmələr;
2. Xına gecəsi nəğmələri;
3. Toy mahnıları;
4. Halaylar.

Bu mərasimdə oxunan nəğmələrin əksəriyyəti sərbəst məzmun özəlliyinə malikdir. Nəğmələr əsasən aşiqanə mövzuya həsr olunur, gənclərin gözəlliyi, mənəvi keyfiyyətləri vəsf edilir, yaxud ümumi şəkildə sevgi-məhəbbət hissləri tərənnüm edilir ("Qızıl gülün dəstəsiyəm, yar-yar", "Hey gülüm maşallah", "Mən ölüm sən qal oğlan", " Ey gülü çardaqlar!", "Həsiri basma, dolan gəl", "Ay üzü xallı ceyran" və s.). Nişan mərasimində oxunan nəğmələr əsasən həsrətə son qoymaq, görüşə dəvət mövzusunu əhatə edir. Bu nəğmələrdə sevgililərin bir-birlərini arzulaması, çağırış xüsusi poetik dillə tərənnüm olunur.

Xına gecəsi ilə bağlı oxunan nəğmələrin özəlliyi qızın qədəmlərinin uğurlanmasının motivləşdirilməsi, onun əhval-ruhiyyəsinin və əzab-əziyyətlərinin də dilə gətirilməsi, ifaya əlavə emosionanllıq qoşulması ilə nəzərə çarpır. Bu baxımdan xına gecəsində oxunan nəğmələri bir neçə mövzu qrupuna ayırmaq olar: 1. Rituala uyğun gəlinin saç, əl-ayaqlarına xına yaxılmasının təsviri, ona uğur, xoşbəxtlik diləmək; 2. Qızın ata evində son gecəsinin xatırlanması, ana, bacı, digər yaxınları ilə vidalaşması; 3. Nəğmə mətnlərində qadın talesizliyi motivi; 4. Şux, ritmik musiqiylə gəlin–qaynana, kişi-qadın münasibətlərinin zarafatyana şəkildə ifası; 5.Hamam nəğmələri.

Toy mərasimi nəğmələri içərisində xüsusilə **halay** qurmaqla ifa olunan mahnılar da ayrıca yer tutur. Halayın quruluşu, təşkili xüsusiyyətləri burada arxaik mifoloji semantikanın məzmunu ilə izah olunur. Yarımdairə şəklində halayı quran dəstələr bununla Ayı təmsil etməklə, sonradan birləşib halqa yaratmaqla Günəşi simvolizə etmiş olurlar. İşıq, istilik, enerjinin təbiətdən təqlid olunaraq mərasim oyununda günəşlə rəmzlənməsi paralel olaraq nəğmələrin müşayəti ilə aparılır.

İkinci fəslin növbəti yarımfəsli **"Lirik xalq mahnılarının forma və məzmun xüsusiyyətlərinə mifopoetik kontekstdə baxış"** adlanır. Azərbaycan şifahi xalq ədəbiyyatının lirik növünə daxil edilən xalq

mahnıları folklor yaddaşımızın ən zəngin irsini əhatə edir. Aşiqanə – məhəbbət duyğularının tərənnümünə bağlanan xalq mahnıları janr mənşəyi, strukturu, poetik, estetik xüsusiyyətləri və s. baxımından digər folklor nümunələrindən fərqlənir. Eyni poetik ölçü və məzmunda Anadolu türklərində "türkü", qırğızlarda "ırlar" şəklində ifadə olunan mahnılar daha çox tərənnümlə bağlı yaranan qədim el nəğmələridir. "Türkü", "türkməni", "varsağı" şəklində türk xalqları arasında geniş yayılan adların etimiologiyası "türk" sözündən törəməklə müxtəlif dövrlərdə ayrı-ayrı mədəniyyətlərlə qarşılaşmada fərqli şəkildə ifadələnmişdir. Xaiq şeirinin bu növləri arasında fərq qismən şəkilləri və musiqi bəstələrinə bağlıdır.

Mahnıların strukturuna gəldikdə, mahnı mətnləri yarandığı ilk dövrlərdən simmetrik quruluşda olmamış, yalnız intonosiyalaşması hesabına indiki nəğmə mətnləri formasına düşmüşdür. Heca sayı, intonasiya, vurğu əsasında xalq mahnılarının formalaşması mətn, ritm, melodik sintaqmlarda həm də improvizasiya olunmuşdur. Eyni zamanda hecalarının sayı qeyri-bərabər olan xalq şeiri konkret formada–bayatı, qoşma, gəraylılarla müqayisədə musiqiyə daha təbii şəkildə uyğunlaşmışdır ki, bunun səbəbi isə xalq şeirinin bünövrəsinin mahnı mətni kimi qoyulmasından irəli gəlir.

**"Xalq şeirinin obrazlar sistemi və mifogenezis"** adlanan III fəsildə arxaik poetik sistem, təbiət kultlarının: dağ, su və od kultlarının mifopoetikası, xalq şeirində islami görüşlərin yeri, xalq şeirinin poetikası mədəni-tarixi modelləşmə kontekstində, xalq şeirinin üslubi özəllikləri kimi problemlər tədqiqata cəlb edilir.

Fəslin **"Arxaik poetik sistem və təbiət kultları"**na həsr olunan bölməsində qeyd olunur ki, genepoetik sistemləşdirmədə xalq şeirinin mifopoetik modelləşməsi Tanrı və İnsan münasibətlərinə əsaslanır və kompleks halda olan müxtəlif düşüncə səviyyələrinin, dini etiqadların əlamətlərini özündə əks etdirir. İlk dövrlərdə ibtidai insan özünü təbiətin bir parçası hesab etmiş, müstəqil substansiya kimi böyük təşəkkül dövrü keçmiş və ruhlar, Allahlar panteonunun zəngin sistemini formalaşdırmışdır.Göy tanrı kultları türklərin inanclarında çox əski çağların dünyagörüşü tipi olmuş, ulu əcdadın məişətinə nüfuz etmiş, tarixin inkişaf mərhələlərində yeni dini etiqadlarla qarşılaşsalar da, əski görüşləri rituallarında möhkəmləndirərək qorumağa çalışmışlar.

Qədim əmək prosesinə bağlı əkin nəğmələrinin, şum mərasimlərinin bir çoxu mifik dünya modelinin bərpasında rolu olan yer altı, yer üstü, göy üzünün müqəddəsləşləşdirilərək iyələr şəklinə düşməsi və onlara səslənmələr, arzulamalar üzərində qurulmuşdur. Əski şum mərasimində

insanların tonqal ətrafında yallı gedərək oxuduqları nəğmələrin, yaxud ritmik hərəkətlərin məzmununda da yer və göy iyələrinin çağırılması kimi ilkin təsəvvürlər dayanır:

Qara göy,
Ağ göy,
Göy göy,
Yaz ver,
Yüz ver,
Yaz ver.[1]

Göy, Yer, Yer üzünün ifadəsi nəğmə mətnində rənglər əsasında verilmişdir. Yerin altı Yerliyin məqamı olmaqla şər ruhlu qüvvələr, onların yeyəcək, geyimləri mifologiyada qara, "Göy Tanrı" adından irəli gələn Tanrının göy üzündə qərarlaşması eyni rəng biçimi, "orta dünya" – insanların məskunlaşdığı məkan isə Yerin altı - qara ilə müqayisədə ağ rənglə ifadə olunur.

Qoruyucu iyələr qrupundan Umay, Ağ Ana, Ayısıt və s. xalq inanc və sınamalarında xeyirxah mifoloji obrazlar olmaqla müxtəlif semantik funksionallığa malikdir. Qeyd olunan iyələr dişi ruhlu qüvvələr kimi uşaqları, hamilə qadınları, bütövlükdə canlıları (Humay), yurdu, ocağı (Ana Maygıl – Bodun İnli – Altay inanc sistemində) qoruyur, rifah gətirir, bərəkət paylayır (Ayısıt-Ayzıt), Tanrı Ülgenə yaradıcı gücü verir (Ağ Ana).

Azərbaycan xalq şeirinin poetik sistemində Umay iyəsi, ilahəsi ilə bağlı nümunələrə daha çox rast gəlirik. Quş şəklində təsvir olunan ilahə şeir mətnlərində də uyğun obrazlılıqda verilir.

Eyni kontekstdə Fatma nənə obrazına da xalq şeirinin müxtəlif şəkillərində rast gəlirik. Bu mətnlərdə Fatma nənə xeyirxah, qoruyucu varlıqdır. O, uşaqların beşiyi başında laylalar söyləyir, sevən gəncləri qovuşdurmağa çalışır, ovsunlarda isə şər qüvvələrinin qarşısını alır. Fatma ana "Azərbaycan türklərinin ənənəvi inanclarında arxaik anlamına görə Umay kultu ilə bağlı mifoloji bir motivdir. Araşdırmalara görə, Fatma nənə adı Məhəmməd peyğəmbərin qızı Fatimənin adıyla bağlı olaraq ortaya çıxmışdır. Mifoloji düşüncənin məntiqi içində Umay ana motiviylə onun arasında qaynaşma gerçəkləşərək İslam gelənəyində mifoloji qılığa bürünmüşdür"[2].

Tanrı – İnsan müstəvisində inanclara bağlanan mifoloji obrazlılığın digər forması şər ruhlu iyələrin xalq şeiri mətnlərində istirakıdır.

---

[1] Mərasimlər, adətlər, alqışlar (Toplama, müqəddimə və qeydlər professor Azad Nəbiyevindir). Bakı, Gənclik, 1993, s.16

[2] Beydili C. Türk mitolojisi Ansklopedik sözlük. Çeviren Erel Ercan. Yurt Kitab-yayın, 2004, s.214

Nəğmələrin poetik məzmununda şər ruhlu qara qüvvələrə: Hal anası, Albastı, daha sonrakı mərhələdə islam mifologiyasında geniş yayılan demonoloji – İblis (şeytan, cin) obrazlarına rast gəlirik. Mifoloji Ulu Ananın bir çox özəlliklərini təsviri və funksional baxımından özündə daşıyan Al//Hal anası türk xalqlarının mifoloji görüşlərində geniş yayılmış xtonik təbiətli obrazdır. Xalq arasında "Hal anası", "Çay nənəsi", "Al arvadı", "Albastı" adları ilə çağrılan mifoloji obrazın su dibində yaşaması, uzun, qarışıq, çirkli saçlı, iri, sallaq döşlü təsviri, hamilə qadınlara, uşaqlara və canlıların balalarına "qənim kəsilməsi" bir çox mifik inamlarda yer almışdır. Ayrı-ayrı rəvayətlərdə xtonik təbiətindən irəli gələn dönərgəliyi Hal anasının gözəl qadın şəklində təsviri informasiyasını da verir.

Göy iyələrinə bağlı mifoloji kontekstdə isə Göy, Fələk və kosmik cisimlərə olan inam özünə yer almışdır. Göy iyəsi burada məkan üçlüyünün (Göy üzü, Yer, Yer altı) orta mövqeyini ifadə edir və xalq şeirində işlənməklə ayrıca intuitiv təsəvvür formalaşdırır. Göy üzünün 7 və 9 mərtəbədə təbəqələşməsi türk tayfa təsəvvürlərinin şərq və qərb qoluna görə dəyişir. Bu sistemdə göy üzünün hər təbəqəsi öz tanrı – iyələri ilə seçilir. Hərb tanrısı Kızagan Tenri göyün IX qatında, Mergen VII, Günəş, Alov VII, Ay Baba VI, Kuduy Yayınçı V, Cənnət isə III qatında yerləşməkdədir[1].

Sakral mifoloji obrazlar içərisində Göy iyələri - kosmik Günəş və Ay başlıca yer tutur. Günəş və Ayın işıq, istilik, gecə, qaranlıq kimi real kosmik funksiyaları epik folklorda, xüsusilə inanclarda müxtəlif başlanğıclar şəklində (ana-Günəş, ata-Ay, bacı (Günəş) – (Ay) qardaş, (Ana-övlad) və s. təsvir olunur. Əvvəlki tədqiqatlarımızda da bu məsələyə toxunarkən müxtəlif xalqların folkloruna, mifologiyasına istinad etmişik. Yunan əsatirlərində Ay titan Hipperion və Teyyanın övladı olmaqla Selen, Vyetnam əfsanələrində Tanrı Ti Lyaunun dünyanı işıqlandırmaq məqsədilə ön Günəş və saysız-hesabsız ulduzla birlikdə yaratdığı doqquz Ay, Cin əfsanələrində ulu əcdad Panqunun ölümündən sonra onun sağ gözündən yaranan işıqlı varlıq, Latın Amerikası hindularının əfsanələrində Günəşlə birlikdə Kran və Kra adlı ər-arvad, digər variantlarda isə Quarayyu qəbiləsinin əcdadı Abaanqanın oğlu kimi təqdim olunur[2]. Epik folklordakı Ay və Günəşlə bağlı mifoloji mətnlərdən fərqli olaraq, xalq şeirində bu "informasiyalar" daha çox "sıxlaşdırılmış" formada verilir.

Xalq şeirində Ay və Günəş bilavasitə gözəlliyi, işıqlılığı simvollaşdırır. Aşıq şeirlərində rastlaşdığımız "ay qabaqlı", "mah üzlü", "ay üzlü" kimi epitetlər bu sistemdə xüsusilə təkrarlılıq qazanmışdır. Yas mərasimi

---

[1] Yavuzer H. Şamanizmde Evren ve Dünya Tasvirleri" Milli Folklor Dergisi. 51, 1997, s.35

[2] Dünya xalqlarının əfsanələri. Dünya Uşaq Ədəbiyyatı Kitabxanası, Bakı, Gənclik, 1990, s.35

nəğmələri-ağılarda isə Ay və Günəşin batıb doğması poetik məzmunda assosiativliyə qoşulur və hər iki kosmik cismin eyni kontekstdəki funksiyası üzərində obrazlılıq yaranır:

Burdan bir atlı keçdi,
Atın oynatdı getdi.
Gün kimi şəfəq saçdı,
Ay kimi batdı getdi[1].

**“Dağ kultunun mifopoetikası” adlı bölmədə** əski təsəvvür və düşüncələrin qaynağında dağ kultunun xalq şeirində müxtəlif bədii-simvolik obrazlaşmasının məzmunu təhlil olunur. İbtidai inamlarda təbiətin canlı təsəvvürü, onun ayrı-ayrı üzvlərinin müqəddəsləşdirilməsi, kulta çevrilməsi insanın ətraf aləmlə mübarizəsi şəraitində formalaşmışdır. Başqa sözlə desək, xalq yaşayış tərzindən, məşiətindən asılı olaraq xüsusi geoloji məkanda yerləşmiş, əhatəli təbii landşaftda cansız varlıqlar etiqad obyekti kimi götürülüb kulta çevrilmiş, insanın ilk dünyanı tanıma qaynağı olmuşdur.

Dağ və daş iyələri konkret Dağ kompleksinə bağlı olmaqla “Yer-su” kultunun ünsürlərinə daxildir. Kosmosun nizamlayıcı strukturunda dağ ortada – Göy qatında bərqərar olan nəhəngliyi ifadə edir. Müxtəlif xalqların mifologiyasında sakral Tanrı - Yaradan obrazı göy üzündə deyil, bir çox hallarda dağlarda təsəvvür olunur (Yunan mifologiyasında – Olimp, hind mifologiyasında – Meru, yaxud Kaylasa, semitlərdə Xazi və s.). Allahın yüksək, ucalıq məqamının göstərcisində dağ kultu daha sonrakı təsəvvürlərdə digər varlıqların məkanına çevrilir. Müqəddəs ata, kağan, geniş kontekstdə atalar ruhunu təmsil edən dağ obrazı xalq şeirində eyni məzmun və ifadəsini saxlamışdır.

Dağın tanrı məkanı, daha sonrakı təsəvvürlərdə ruh, iyə kontektsinə qoşulması nəticə etibarilə xalq məişətində bir çox ritual-hərəkətlər, sınama, təcrübələri formalaşdırmışdır. Şamanların zamanla üzünü dağlara tutub dua etmələri, dağ çiçəkləri, havası, suyunun sakral-yozucu, şəfaverici xüsusiyyəti, dağa tapınma və s. görüşlər xalq şeiri-bayatılarda geniş yer almışdır.

**“Su kultunun mifopoetikası” adlı bölmədə** Azərbaycan folklorunun genepoetik sistemində “su” kultunun digər yaradılış ünsürləri də daxil olmaqla obraz sakrallığı və mətn funksionallığından bəhs edilir. Folklorun ayrı-ayrı janrları – nağıl, dastan, əfsanə, rəvayət, bayatı, alqış-dua və qarğışlarda su mifopoetik düşüncədə geniş yayılmış arxetipik obrazlardan

---

[1] İsgəndərova Elmira Rasim qızının dilində yazıya alınmışdır. O, Zəngilan rayonunun Qızılca kəndindəndir, hal-hazırda Bakı şəhərində məskunlaşmışdır.

biri kimi simvolizə edilmişdir. Bədii sənətdə tarixi-estetik məzmunda ifadə olunan, daha çox paklıq, təmizlik rəmzi kimi obrazlaşdırılan "su" xalq təfəkküründə, mifik düşüncədə "həyat", "başlanğıc", "kosmosun bərpası" motivlərində çıxış edir.

Əfsanə, nağıl və dastanlarda olduğu kimi, xalq bayatılarında da şəfaverici bulaqların timsalında su müqəddəsliyinin izi eyni kontekstdə izahını tapır. Suyun axması, həyat, yaşarılıq, dirilik simvolikasında çıxış etməklə, həm də metoforikləşmədə keçmişin, zamanın daşıyıcısı kimi rəmzləşməkdədir:

Mən aşiq, arxa çıxar,
Su gələr, arxa çıxar.
Züryətə bel bağlama,
Züryət bivəfa çıxar[1].

Suyun xalq şeirində mifoloji, sakral mövcudluğu dini-fəlsəfi motivdə ideallaşdırılmasında da ifadə olunur. Məlumdur ki, "od"un mifoloji düşüncədə "kult" səviyyəsində sakrallığı sonradan İslamın "od" fəlsəfəsinə transformasiya olunmuşdur. Odla yanaşı, su kultunun da dini-funksional semantikası sufizmin poetik-fəlsəfi sistemində öz ifadəsini tapmaqla bir çox xalq bayatılarında eyni motivdə qorunub saxlanılmışdır.

Xalq şeirinin poetikası "su" ilə bağlı inanc və inamlarla zəngindir, kultlardan, sakrallaşmadan, çoxcəhətli mifoloji xüsusiyyətlərdən obrazlaşmada geniş istifadə olunur. Bayatılar, xalq mahnıları, ovsunlar və mərasim nəğmələrində "su" kultunun arxaik, mifoloji özəllikləri həm mifoloji şüurun məzmun rəngarəngliyi, həm də struktur, forma əlamətləri ilə birləşərək mifopoetik düşüncənin mahiyyətini əks etdirir.

**"Od kultunun mifopoetikası"** bölməsində göstərilir ki, insanın əski təsəvvür, inanc, düşüncəsinin formalaşdırdığı mifoloji motivlər sırasında oda tapınma və od kultu ayrıca yer tutur. İbtidai insanın təbiətin soyuğundan, şaxtasından qorunması, vəhşi heyvanlarla mübarizəsi və s. oda ehtiyacın ilkin mərhələsini təşkil etmişdir. Od, işıq və istiliyin dövrəsində məişətini quran ulu əcdad sivilizasiyaya doğru inamlı addım atmışdır. Odun, ocağın müqəddəsləşdirilərək kultlaşdırılması nəticəsində magik-ritual hərəkətlər, səs-söz ovsunları da od üzərinə köçürülmüşdür.

Xalq şeirinin zəngin mifopoetik özünəməxsusluğunda yer alan "od" kultunun mərasimlərdəki, inanclardakı forma xüsusiyyətləri əski təsəvvürlərin, düşüncələrin ilkin qaynağı kimi maraq doğurur. Ovsunlar, mərasim nəğmələri və s. daha geniş şəkildə müşahidə olunan oda inam,

---

[1]Laçın folkloru. (toplayan: Qəhrəman İ.), Bakı, Adiloğlu, 2009, s.163

odla bağlı ritulların oxşar xüsusiyyətləri yaradılış, dünyanın – kosmosun bərpası, insanın ruhi-mənəvi enerjisinin "idarə olunması" və s. kimi əski düşüncə reallıqlarında bütöv bədii-mifoloji bir sistemi təşkil etməkdədir.

**"Xalq şeirində islami görüşlərin modelləşməsi"** bölməsində Azərbaycan xalq şeiri, onun sənətkarlıq məsələlərində, poetikasında islami motivlərin yer alması şərti olaraq aşağıdakı şəkildə qruplaşdırılır:

1. Dinin qəbulunun, başlıca olaraq islam şəhadətinin lirik mətnlərin poetik strukturunda yer alması;
2. İslam din xadimləri, peyğəmbərlərlə bağlı inancların bədii sənətkarlığın vasitəsinə çevrilməsi;
3. Mifoloji zamanın poetikləşməsi;
4. Mifoloji məkanın poetikləşməsi;
5. İslam dinınə bağlı digər dini elementlərin xalq şeirində obrazlaşması.

İslamın böyük mədəniyyətlərə təsiri, ilk növbədə dinin başlıca təlim sistemi – islamın qəbulu, onun ehkamlarının təbliğinə bağlanması ciddi siyasi təcrübəyə əsaslanmışdır. Bu mənada xalq şeirində islam motivləri mürəkkəb konstruksiyalarda poetikanı şərtləndirən başlıca üsul olmaqla, həm də dövrün İslami siyasətini öz axarında təbliğ etmişdir.

İslam şəhadəti, ardıcıl şəkildə peyğəmbərin dünyaya gəlişi və vəsvinə bağlı nəğmələrin motivi, icra olunan iş və hadisə ilə sıx şəkildə bağlanıb, hərəkətin ümumiləşdirilmiş dini-mifik formasında ifadə olunur.

Dini- məkani obrazların xalq şeirində poetikləşməsi burada əsasən iki konteksdə müşahidə olunmaqdadır. Birinci istiqamət, İslamın yaranması, İslam peyğəmbərinin doğulub din uğrunda mücadilə apardığı, tarixi döyüş, müqavilələrin gerçəkləşdirildiyi məkanlara bağlıdır. Məkkə, Kəbə, Mina dağı və s. bu qəbildən olan məkan adları həm də İslam din tarixi üçün əhəmiyyət daşımaqdadır. Hicazda müsəlmanların müqəddəs şəhərlərindən sayılan Məkkə Məhəmməd peyğəmbərin doğulduğu, həmçinin yaşadığı müqəddəs məkandır ki, müsəlmanların ziyarəti də hər il "Əl-Məscid əl-Həram" da keçirilir. İslamın əsas ziyarətgahlarından olan Kəbə divarlarına hörülən, mifoloji rəvayətlərə görə, Allahın göydən göndərdiyi «Qara daş» da bu müqəddəsliklər sırasındadır. Həcc rituallarında müsəlmanlar 7 dəfə Kəbənin dövrəsinə dolanır, "qara daşı" öpür, qurbanlar kəsirlər. Mina vadisi isə İslam tarixində bu silsilədə İbrahim peyğəmbərin yolunu kəsmiş İblisi qovduğu yer, həm də peyğəmbərin Allaha qurban kəsdiyi müqəddəs məkan kimi səciyyələndirilir. Xalq şeirinin poetik sistemində isə bu məkan-obrazlar xüsusi obrazlılıqda əşyavi-məntiqi formadan kontekstual mənaya keçərək ifadə olunur:

Dağ başında əsən, dur,
Yollarını kəsən dur.
Aləm Kəbəyə dönsə,
Mənim qibləmə sən dur[1].

Aşıq ötən qurbanı
Böldürdü tən qurbanı.
Apar Mina dağına,
Kəs yara mən qurbanı[2].

İslam mifoloji motivlərindən qaynaqlanan obraz və obrazlaşma ünsürlərinin xalq şeirində bir arada tutulması dini etiqad və düşüncənin bütöv bir sistemi, eləcə də bu sistemin folklordakı qərarlaşmış xüsusiyyətini müəyyən edir. Folklor yaddaşı və tarix müstəvisində İslam bu mənada həm dini görüş və etiqad olmaqla xalq şeirinin məzmun, forma gözəlliyində ifadə olunmaqdadır.

**"Xalq şeirinin poetikası mədəni-tarixi modelləşmə kontekstində"** bölməsində qeyd olunur ki, Azərbaycan folklorunun zəngin qaynaqlarından olan müxtəlif nəğmələr, mahnılar, bayatılar öz tarixi kökləri ilə daha qədim zamanlardan yol alaraq xalqın arzusunu, mübarizəsini, dünyagörüşünü və s. müasir mədəniyyətimizə bağlamaqdadır. Folklor xalqın tarixidir. Əgər tarixçinin mühakimələri məlum faktlar, sənədlərə əsaslanırsa, xalq yaradıcılığının obrazlı təfəkküründə bu bilik həm də bədii-fəlsəfi məntiq, dünyaduyumu ilə birləşərək tarixin mahiyyətini üzə çıxarır. Folklorumuzun janr sistemində yığcam mətn strukturu, dərin lirizmi ilə yüklənən bayatılarda və ayrı-ayrı xalq mahnılarında tarixi faktların ümumiləşdirilmiş obrazı əsasən torpaq, vətənin zaman-zaman yaşadığı ağrılar, siyasi hadisələr üzərində qurulmuşdur. Bu qrup lirik nümunələr eyni kontekstdə daha çox aşağıdakı tarixi hadisələrə bağlı yaranmış və bu motivlər zamanla ad-formullarda simvolik, kodlaşdırılmış səciyyə daşımışdır:

1. Azərbaycanın ikiyə bölünməsi tarixiliyinin yaşatdığı ağrılar üzərində qurulan Təbriz həsrətinin poetikləşməsi;
2. Tarixin sınağında Qarabağ həqiqətlərinin lirik mətnlərin qaynağında poetikləşmə xüsusiyyətləri.

Araz və Təbriz ünvanlı bayatılarda tariximizin bəlli bir dövründə baş vermiş hadisələrə bağlı vətən, qürbət, həsrət və s. motivlərə geniş yer ayrılır:

"Araz"dan keçən də var,
Suyundan içən də var,
Tutma "Təbriz" adını,
Ürəyi keçən də var[1].

Araz gəlir daşından,
Suyu qalxır başından.
Əzəli dum-duruydu,
Bunaldı göz yaşından[2].

---

[1] Bayatılar (Toplayanlar: V.Vəliyev, S.Paşayev. Tərtib edəni və ön sözün müəllifi: V.Vəliyev), Bakı, Yazıcı, 1985, s.124
[2] Yenə orada, s.128

Azərbaycanın digər bölgələri kimi, Qarabağ da tarixən güclü hərbi-siyasi təcavüzlərə məruz qalmış, ərazisi, füsunkar torpağı qədər də milli-mənəvi dəyərləri – musiqisi, söz sənəti, sənətkarlıq nümunələri talanmış, məhv edilmişdir. Tarixi həqiqətlərin ən qiymətli mənbəyinə çevrilən Qarabağ bayatıları bu baxımdan regional mövcudluqda daha fərqli məna, poetik tutuma malikdir.

Özünəməxsus poetik sistemini formalaşdıran regional bayatıların struktur semantikası, estetik bütövlüyü qeyd olunduğu kimi, yaşanan tarixin izinə bağlıdır. Qarabağın tarixi keçmişi, mübarizə, mücadilə taleyi bu bayatılarda əsasən aşağıdakı motiv, bədii qəlib və formada ifadə olunmaqdadır:

1. Etnik-coğrafi ərazinin tarixi-əfsanəvi adının simvollaşdırılması;

2. Qarabağın azadlıq mücadiləsinə bağlı tarixi həqiqətlərinin bədiiləşməsi.

Qarabağla bağlı bayatıların poetik özülündə də ərazinin etimioloji kökü eyni əsasda öz izini qoymaqdadır:

Əzizim Qarabağda
Gül əkdim qara bağda.
Özüm dərə bilmədim,
Dərdi yad Qarabağda[3].

Aşıq qarabağlıdır,
Belim haqdan bağlıdır.
Yolçu, qayıt qonaq ol,
Bu el qara bağlıdır [4].

Qarabağ toponiminin yaranması ilə bağlı ikinci mühüm etimioloji fakt ərazinin adının Zaman oğlu Qara adlı şəxslə əlaqələndirilməsidir. Bu tarixi rəvayətdə qeyd edilir ki, Zaman oğlu Qara uzun səfərlərdə əziyyət çəkən tayfanın yolçuluğunu nəzərə alaraq Şuşa ətrafında böyük bir bağ salır. Tezliklə bu bağın meyvələri, nemətləri indiki Qarabağ ərazilərində məşhurlaşır. Əl-əl süfrələri bəzəyən bu nemətlər "Qaranın bağının" məhsulu kimi xalq arasında deyimə çevrilir və "Qara bağ" şəklində sabitləşir. Maraqlıdır ki, məlum bayatı mətnləri də bağın salınması motivindən kənar keçmir:

Qarabağ balasıyam
Qara bağ salasıyam.
Ay yurdumun Kərəmi.

Don tikən ağı bizdən,
Belinin bağı bizdən,
Qoymayın yad ellini,

---

[1] Bayatılar (Toplayanlar: V.Vəliyev, S.Paşayev. Tərtib edəni və ön sözün müəllifi: V.Vəliyev), Bakı, Yazıcı, 1985, s.295

[2] Bayatılar (Toplayanı və tərtib edəni Həsən Qasımov), Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960, s.134

[3] Azərbaycan Folkloru Antologiyası, V kitab- Qarabağ Folkloru,( Toplayanı: prof. İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim), Bakı, Səda, 2001, s.31

[4] Yenə orada, s.33

Mən Əsli olasıyam[1]. Almağa bağı bizdən[2].

**“Xalq şeirinin üslubi özəllikləri”nə həsr olunan bölmədə göstərilir ki,** xalq şeirinin bu və ya digər formada yaranması və yayılması müvafiq ifa situasiyalarında gücləndirildiyindən üslubi amil də burada məhz ifaçıya bağlanır. Ayrı-ayrı xalq mahnıları, nəğmələrin yaranması geniş mövzu, motivi özündə birləşdirməklə müvafiq mərasimlərlə, ayinlərlə əlaqələnir, fərdi baxış, hiss-duyğuları, eləcə də sosial-ictimai ovqatı, həmçinin konkret tarixi-coğrafi informasiyanı ifadə edir. İfa situasiyasının qeyd olunan motivlərdə reallaşması üslub əlvanlığının başlıca vasitəsi olaraq çıxış edir.

Xalq lirikasında üslubi reallıq bir çox hallarda məkan, zaman, təbiət, məişət və s. bağlı formullarla dəyərləndirilir. Üslubi yöndə ilkin göstəriciyə çevrilən söz və obraz şifahi lirik mətnlərdə estetik işarənin qəlibində formalaşır. Kanonik tamlıq forma və məzmun vəhdətinin bütövlüyünü həll edir. Mətn modelində estetik işarə bütün hallarda janr düşüncəsində mənanı formalaşdırmaqla üslubu müəyyənləşdirir.

Xalq lirikasının müxtəlif janr özünəməxsusluğu motiv çevrəsində həm də üslubi vasitələrlə fərqləndirilir. Poetik tutuma bağlanan bu nümunələrin bədii təsvir və ifadə vasitələri bütöv mətnin struktur əlaqələndirmə elementləri kimi başlıca yer tutur. Mövzu və motivin mahiyyəti uyğun məcazlardan istifadədə formalaşır. Metafora, epitet, simvol və s. məcazlar bu sistemdə sakral, dini, ictimai, məhəbbət motivinə uyğunlaşdırılır. Təsvir obyektinə işarələnmənin məcazi yönü bütün hallarda fərqli məna və bədii situasiyaları formalaşdırır.

Bədii təsvirin mühüm xüsusiyyəti kimi rəmzləşmə də xalq şeirinin üslubi məziyyətində ayrıca yer tutur. Təsvir olunan obyektin rəmzi mənalandırılması tarixi-ictimai, sosial, lirik ovqatın funksionallığını müəyyənləşdirir. Xalq lirikasında ayrıca simvol olaraq seçilən “Araz”, “Qarabağ”, “Təbriz”, “bürc”, “qala” və s. bilavasitə ictimai-tarixi motivin başlıca seçilən fəal-obraz rəmzləridir.

İmprovizənin, əlavələrin mahiyyəti mahnılarda daha çox müxtəlif səs, söz birləşmələrinin təkrarı və bütöv nəqarətlərin işlənməsi ilə reallaşır. Musiqi üzərində qurulan bayatıların fonopoetik qatında alleterativ səs təkrarları, xüsusilə sonorlar mətndə açar rolunu oynayır. Fonetik təkrarlar üçün assonanslarla yanaşı, alliterasiyaların da müəyyənliyi başlıca şərtdir.

---

[1] Azərbaycan Folkloru Antologiyası, V kitab- Qarabağ Folkloru,( Toplayanı: prof. İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim), Bakı, Səda, 2001, s.30

[2] Bayatılar (Toplayanı və tərtib edəni Həsən Qasımov), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1960, s.155

Assonanslarda olduğu kimi, alliterasiyalar da obrazlılığı genişləndirməyə əsas verir, digər mənt konstruksiyalarında əlaqələlik yaratmış olur.

Xalq mahnılarının mətn strukturunda söz, təkrarlar da yer almaqla emosional ovqatın yaranmasını şərtləndirən anafora, epiforalar burada sxematik təkrar deyil, mətnin forma zənginliyi, səslənmənin musiqililiyinin, eləcə də məzmun kəsərini artıran bədii vasitə kimi çıxış edir.

Xalq lirik şeirində bütün hallarda nəğmə mətnləri yaranması, tarixi özəlliyi, real-mifik məzmunu, hissi-emosional ovqatı, xüsusiyyətləri ilə üslubi imkanları da formalaşdırır.

Dördüncü fəsil **"Xalq şeirinin poetik strukturunda Mifik Dünya Modeli"nə həsr olunur** vəmifopoetik sistemdə predmet-obrazların spesifikası, xalq şeirinin poetik sistemində sayların mifoloji simvolikası, xalq şeirində heyvan və quş obrazlarının mifoloji semantikası, xalq şeirinin poetik sistemində rənglərin mifoloji simvolikası kimi məsələlərə aydınlıq gətirilir.

**"Mifopoetik sistemdə predmet-obrazların spesifikası"** bölməsindəAzərbaycan xalq mahnılarının məzmun gözəlliyinin bu mətnlərin poetikasına, bədii-estetik mahiyyətinə bağlılığı əsaslandırılır. Lirik mətnlərdə müxtəlif bədii təsvir və ifadə vasitələri müəyyən ənənəvi formullara bağlı olmaqla, ikinci bir tərəfdən xalq təfəkküründə sabitləşmiş etiqadların məzmununu daşıyır. İstənilən halda poetik dövriyyədə xüsusi funksionallıq qazanmış bir çox epitet, metafora, mübaliğə və s. bədii fiqurların struktur semantikası mövcud mifik fikir aktından çıxış edir. Bu baxımdan xalq mahnılarında xüsusi yer tutan "alma", "nar", "yaylıq" və s. obrazları seçilir. Qeyd olunan predmetlərin funksionallığı ilkin mərhələdə bənzəyən, bənzədilən əşya müəyyənliyinə bağlanmaqla, həm də predmetin kənar mifik motivinə əsaslanır.

Mövcud əşya simvolu sinqnifikativ şüur aktında ilk baxışda hamı tərəfindən mənası başa düşülüb qəbul edilən məna potensiyasını açıqlayır. "Alma"nın "noematik" düşüncədə məna aydınlığı sadəcə gözəllik və şirinliyə bağlıdır. Müstəqil metafora (alma kimi şirin), metaforik qrup epitetlərdə (alma yanaq və. s) predmetin obrazlaşması simvol və işarə müstəvisində reallaşır (poetik-noematik akt). "Alma" ilə bağlı obrazlaşmanın belə arxaik nümunəsinə "Kitabi-Dədə-Qorqud"un poetik mətnlərində təsadüf edilir. "Poetik-noematik" düşüncədə əlavə məna tutumu qazanan "alma"nın simvollaşması bilavasitə əski mifoloji təsəvvürlərə bağlıdır. Məşhur nağıllarımızdan olan "Məlikməmməd"in demək olar ki, xalq arasında yayılmış əksər variantlarında alma şahı cavanlaşdıran, onun gəncliyini qoruyan əfsanəvi meyvə kimi verilir. Əlavə olaraq nağılda

almanın qorunması insanlarla divlərin, geniş mənada, xeyirlə şərin konfliktinin gerçəkləşdirildiyi başlanğıc məqam olaraq diqqəti cəlb edir.

Xalq mahnılarının poetik strukturunda başlıca obraza çevrilən predmetlərdən biri də “nar” obrazıdır. Predmet olaraq “nar”ın qırmızılığı, şirinlik əlaməti də “alma”da olduğu kimi, bədii məqamda bənzətmə obyekti olaraq gözəlliyin poetikləşməsinə və müqayisəsinə xidmət edir. Əksər poetik mənalandırmada “nar” oxşar bədii obrazla müəyyənləşir. İlkin adekvat predmet keyfiyyətliliyi ilə yanaşı, “nar”ın xalq nağılları, sınamalar, nəğmə mətnləri, ayrıca yuxu yozumlarında etnosun mifik düşüncəsinə, təfəkkürünə bağlı rəmzi-simvolik ifadələnməsi mövcuddur.

Xalq mahnı mətnlərinnin xüsusi predmet-obrazlılığında seçilən “alma” və “nar”ın magik motivdə reallaşmasının növbəti bir tərəfi bu obrazların ovsun elementinə çevrilməsinə bağlıdır. Məlumdur ki, əksər dünya xalqlarının arxaik folklor materiallarında digər ovsunlarla yanaşı, məhəbbət, intimliyə bağlanan ovsunlar da mövcuddur. Bu ovsunların həyata keçirilməsi onun magik predmet qrupundan başlanır ki, burada yarpaq, ləçək, dəsmal, saç və s. ilə ovsunun ötürülməsi şərtdir. Nəzərə alsaq ki, xalq mahnılarının ayrı-ayrı motivlərində məhəbbətin oyanması, yaxud bu hisslərin qarşılıqlı olmasına cəhd alma və narın bağışlanması qəbilindən olan predmetlərə söz, səslənmə üzərində qurulur, o zaman bu obrazların funksionallığı da ovsunlara bağlanır.

“Saç”ın mifopoetik simvol kimi struktur-semantik xüsusiyyətləri şifahi sənətin, yaradıcılığın digər növlərində olduğu kimi, xalq lirikasında da çoxsaylı etnopoetik, mifoloji simvollarla zəngindir. Lirik janrın səciyyəviliiliyinə - daha çox subyektiv hisslərdən qaynaqlanmasına bağlı olaraq bəzən bu simvollar öz semantizmini açıq-aşkar işarələnmədə bildirdiyi halda, bir çox məqamlarda ikinci məna qatında gizlətmiş olur. Lirik mətnlərin poetik predmetliliyində insanın saçı bu baxımdan ikili bədii-semantik cəhəti, struktur dəyişikliyi ilə seçilir. Tarixi-mifik yaddaş qaynağında, ilkin təsəvvürlər sistemində müəyyən inanclara yol alan, bir sıra tabu, ehkamlarda qorunan insan “saç”ı müxtəlif janr spesifikliyində gözəllik rəmzi, eləcə də mifopoetik simvol informativliyini saxlamaqdadır.

“Saç”ın folklor ədəbiyyatında daha çox sınamalarda möhkəmlənən mifik məzmunu magik qəlibi ilə şifahi sənətin müxtəlif janrlarına səpələnmişdir. Pərakəndə şəkildə ayrı-ayrı janrlarda yer alan sirli “saç” motivi, xüsusilə xalq mərasimlərində, törənlərində qorunmaqdadır. İnsan saçının uzun-qısalığı, rəng çaları, səliqəsizliyi, düzümü, bəzədilməsi və s. məzmunu ilə müxtəlif lirik mətnlərdə fərqli şəkildə ifadələnməkdədir. Azərbaycan folklorunda “saç”ın xalq mərasimlərində semantizmi daha

geniş məna kəsb edir. Məlumdur ki, məişətimizdə yas törənlərində ölən insan üçün ağlamaq, ağı söyləməklə yanaşı, saç yolmaq, hörükləri kəsmək kimi ritual davranışları da yer almaqdadır. Saçların kəsilməsi, ölən insan üçün qurban verilməsi, eləcə də mərhumla birlikdə məzara qoyulması Azərbaycanda olduğu kimi, Efiopiya sakinlərinin adətləri, Qveniya, Afrikanın bir çox qəbilələrində də geniş yayılmışdır[1].

Xalq lirikasının qeyd olunan bütün janrlarında aparıcı obraz-predmetliliyində seçilən saç öz semantizmini, mərasim rituallığı, mifopoetik simvol keyfiyyəti qaynağında yaşatmaqdadır. İnsanın ruhi, psixoloji vəziyyətinin "idarə olunması"ndan yol alan arxaik təsəvvürdən başlayaraq gözəllik, magizmin də qatıldığı bu mifopoetik simvol xalq şeirində ən qədim rəmzi məna yükü və zamanla cilalanan semantizmi ilə eyni əski təsəvvürün sirli dünyası kimi maraq doğurur.

**"Xalq şeirinin poetik sistemində sayların mifoloji simvolikası"** bölməsində qeyd olunur ki, ibtidai düşüncə sistemində dünyanın, ətraf aləmin, bütövlükdə kosmosun dərk olunmasında bu və ya digər cəhətlərlə yanaşı, sayların formalaşması, öyrənilməsi üsulları və riyazi hesablamaların mifoloji dərk olunmasının özünəməxsus yeri vardır. Daima təbiətlə təmasda olan insan ücün zamanın irəliləməsinin, ayın, ilin dövrləşməsinin və ən əsası fəsillərin əvəzlənməsinin onların təsərrüfat həyatında, məişətində böyük rolu olduğundan riyazi informasiyanın öyrənilməsi daha vacib əhəmiyyət kəsb etmişdir. Sayların yaranmasının insan cəmiyyətindəki sonrakı mərhələsi isə xüsusi təsərrüfatçılığın formalaşmasından qaynaqlanmışdır. Nəzərə alsaq ki, ilkin insan cəmiyyətlərinin təsəvvür və düşüncələrinin özülündə ətraf mühüt, landşaft dayanırdı, o zaman riyazi ünsürlərin də formalaşması bilavasitə təbiətlə bağlı olmuşdur. Sayların bu cəmiyyətlərdə zamanla formalaşan mənası, işarəvi funksiyaları təcrübələrə dayanaraq dünyanın kəmiyyət strukturunu, müxtəlif dini motivlərdə simvolik xüsusiyyətlərini də modelləşdirirdi. Riyazi ünsürlərin bu gün folklorumuzun müxtəlif janrlarınada möhkəmlənən kökləri "sıxılmış" mifoloji informasiyaların mənbəyində xüsusi məxəz rolunu oynayır. Azərbaycan xalq nağıllarının, dastanlarının poetik mətnlərində epik informasiyaların kəmiyyət strukturu da daxil olmaqla say simvolikası şifahi ənənədə xüsusi bir sistem təşkil etməkdədir. Nağıllardan fərqli olaraq, xalq şeirində sayların motivləşməsi yalnız nəğmələrin ifasının bağlandığı ritual hərəkətlərdə daha çox təkrarlılıq qazanır, mətnlərdə isə konkret simvoli-

[1] Традиционные и синкретические религии Африки. Москва, Академия наук СССР. Институт Африки. Москва 1986,с.248

kada bədiiləşir. Xalq şeirində 3,7, 12, 40, 100,1000 və s. rəqəmlərin seçkinliyi Dünya, kosmosun mərtəbəliyi, ovsun nəğmələrində hərəkətlərdə təkrarlılıq, toy və yas mərasimlərində gün sayı (3,7, 40), islam övliyaları, eləcə də rituallarına bağlı sıralanma, niyyət, arzulama motivləri, uşaq nəğmələrində hiperbola, təsvir, ifadə üsulu və s. bağlanır. Bütün hallarda qafiyə uyğunluğu yaratmayan uşaq sanama nəğmələri isə bilavasitə öz məzmununda xalq inanc və təsəvvürlərinin kökünü qoruyub, saxlamaqdadır. Sayın simvolik məna və motivləri bir çox cəhətdən dünyagörüşü səviyyəsində tarixi xarakter daşıyır. Sözlərdən, deyimlərdən fərqli olaraq saylar həm də xalq şeirinin mifoloji-poetik sistemində daha çox kodlaşdırılmış informasiyasının simvolik forma – vasitəsi kimi ümumiləşir.

**"Xalq şeirində heyvan və quş obrazlarının mifoloji semantikası"**na həsr olunan bölmədə vurğulanır ki, ayrı-ayrı heyvan və quş növlərinin xalq şeirinin poetik sistemində obrazlaşdırılması təsviri baxımdan sadəcə estetik səciyyə daşımır, həm də əski mifoloji düşüncə və inamların qaynaqlarını müəyyənləşdirir. Poetik sistemdə mənfi və müsbət eksspressivlikdə bu obrazlar mifik düşüncənin ilkin qaynaqları ilə qarşılıqlı əlaqə və qanunauyğun münasibətlərdə olmaqla bədii mətnlərin ifadəlilik imkanlarını daha da zənginləşdirir.

Xalq şeirinin poetikasında bədii təsvir vasitələri daha çox bülbül, durna, kəklik, göyərçin və s. quş növlərinin obrazlaşması üzərində qurulmuşdur. Gözəllik, nəciblik, ümidsizlik və s. zahiri və mənəvi keyfiyyətlərin ifadəsində bu obrazlar metoforikləşmədə daha təbii, canlı obrazlaşmaya xidmət etməkdədir. Şifahi və klassik, müasir poeziyada sevgi, məhəbbət, ayrılıq, həsrət kimi motivlərin ifadəsində bilavasitə bülbül obrazı qoşulduğu güllə obrazlaşmada etnopoetik sistemdə ənənəvi məcazlaşmanın əsasında dayanır. Göyərçinin obrazlaşması isə yaradılış əfsanələri, islam mifologiyası da daxil olmaqla folklor mətnlərində uyğun motivlərdə geniş sakrallıq qazanmışdır. Quşun "Tufan vasitəsilə qazandığı toxunulmazlıq"[1] sonradan xalq inanclarında, sınamalarında eyni müqəddəslikdə qorunmuşdur. Göyərçinin simvollaşması şeirlərdə gözəlliyə bağlanmaqla həm də xəbər motivində məcazlaşır. Dünya xalqlarının mifologiyasında qoruyucu ruhu təmsil edən göyərçin cildinə keçmə də mifoloji motivin başqa bir tərəfinə bağlıdır. (Yunan mifologiyasında Eurynome Kaostan tanrısı, Azərbaycan nağıl, miflərində pərilərin göyərçin cildinə düşməsi və s.). Bəktaşi təriqətində hacı Bəktaşi Vəlinin Xorasandan Anadoluya göyərçin

[1]Aça Mehmet. Tufanın "kuşları" ve "Kozıközpeş-bayan Sulu" destanındakı bazı kuşlar // Milli Folklor: Uluslararası halkbilimi Dergisi. 1999 -42, 55 s.

donunda gəlməsinin obrazlaşdırılması da bu baxımdan abdalların dini görüşlərində ayrıca yer almaqdadır:

...Güverçin donuyla Uruma uçan,
İmamlar evinin kapısın açan...
Ali oldum, Adem oldum bahane,
Güverçin donuyla geldim çehane[1].

Göyərçinlərin islam mifologiyasında şəhid imamların qanına ayaq basması və bu faciəni ilk olaraq qanlı ayaqları ilə yayması motivinə bağlı Azərbaycan bayatılarında, xüsusilə ağılarda göyərçinin obrazlaşdırılması geniş yayılmışdır:

Göydə göyərçin ağlar,
Yuvada laçın ağlar.
Sən yadıma düşəndə
Başımda saçım ağlar[2].

Bayquş, ceyran, sona, kəklik, durna və s. kimi heyvan və quşların müsbət və ya mənfi ekspesissiyası xalq şeirinin poetikasında məqsədli şəkildə istifadə olunmuşdur. Bu poetik sistemdə bədii-estetik kateqoriya olaraq gözəlliyin tərənnümü xüsusilə ceyran obrazı üzərində ümumiləşdirilmişdir. Xalq şeirində qadın duruşunun, baxışının, nəcibliyinin, hətta zəifliyinin (şeirdə əsasən ürkəklik kimi götürülmüşdür) ceyran ilə (maral, ahu) obrazlaşdırılması daha geniş yayılmışdır.

Xoruzun folklor, mifoloji mətnlərdəki obrazlılığı "Heyvan-Ata" inancları sisteminə qoşulur ki, güc, nəsilartırma, qızğınlıq kimi fizioloji heyvan aktivliyini ifadə edir. Xoruzun bir çox inamlarda müqəddəsliyi onun xüsusi rituallarda qurban kimi kəsilməsinə bağlıdır.

Quş və heyvan növlərinin xalq şeirinin poetik sistemində obrazlaşdırılması ideya və məzmunun ifadəliliyinə bağlanmaqla lirik mətnlərin bədii xüsusiyyətini formalaşdırır. İnsanın ətraf aləmdəki ayrı-ayrı canlı obrazlarına fərqli münasıbəti heç də təsadüfü səciyyə daşımır. Heyvan, quş və həşəratların mətnlərdəki leksik-semantik qruplarının emosionallığı, ekspressivliyi və obrazlılığı həm də qədim insanın ibtidai inamılarının qaynağını üzə çıxardır.

**"Xalq şeirinin poetik sistemində rənglərin mifoloji simvolikası"** adlanan bölmədə göstərilir ki,dünyanın bədii modelinin formalaşmasında ayrı-ayrı predmetlərin, canlıların, say sisteminin poetik informativliyi

---

[1] Ayata Saim. Kırşehir yöresi abdallarının dini inancları üzərinə bir araştırma. Kayseri, 2006, s.118 // http://turuz.com/az/book/title/kirshehir-yoresi-abdallarinin-dini-inanclari-uzerine-bir-arashdirma

[2] Azərbaycan Folkloru Antologiyası: V kitab – Qarabağ folkloru / Toplayanı: prof. İ.Abbaslı, T.Fərzəliyev, N.Nazim. Bakı, Səda, 2001, s.129

sırasında rəng simvolikası da ayrıca mühüm rola malik olmuşdur. Bu mənada tarixən insanlar ətraf aləmin "kəşfi"ni digər cəhətlərlə yanaşı, həm də rənglərin işığında dərk etməyə cəhd göstərmişlər. Müxtəlif xalqların mədəniyyətində olduğu kimi, türk xalqlarında da rənglər milli və mənəvi dəyərlər sırasında qorunmuş, ilkin inanclarda Dünyanın mərkəzi və dörd bir yanı rənglərin əlvanlığına bürünmüşdür. Mifoloji düşüncənin rəng sistemində sarı rəng dünyanın mərkəzini bildirmiş, şərq yaşıl (mavi), qərb ağ, cənub qırmızı, şimal isə qara rənglə ifadə olunmuşdur. Mifopoetik düşüncənin sinkretik qavramında dünyanın dörd bir tərəfi rənglər və canlılar üzərində də təmsil edilmişdir: "Uyğurlarda doğu (mavi-yaşıl) əjdaha, Batı (ağ) pars, Güney (qızıl) sağsağan, Qüzey (qara) ilandır"[1]. Göy türklərin qədim kurqanlarından tapılan geyimlərində kişi skeletinin üzərindəki üst geyiminin qırmızı, ondan sonrakının yaşıl, iç geyiminin isə sarı atlasdan ibarət olması da rənglər haqqındakı ilkin bilgi və dini təsəvvürləri nümayış etdirir. Arxaik düşüncədə rənglər xaosu, onun kosmosa çevrilməsini, dünyanın yaradılmasını, nizama salınmasını simvollaşdıraraq bütöv bir sistemi əhatə edir.

Rənglərin ilkin təsəvvürlərdəki rəmzi mənaları bu günə kimi öz əski anlamını qorumuşdur. Mifik düşüncədə şərin atributları qara, göy, bütövlükdə tünd rənglər (xalq danışıq dilində də elə bu qrup rənglər "bəd" rənglər adlanır) canlıların (qara pişik, qara ilan və s.), müxtəlif predmetlərin (qara daş, qara sap, göy sap, qara saç, qara qıfıl və s.) üzərinə köçürülməklə əlavə məzmun qazanmışdır. Məsələn, tofalılar bədxah ruhlardan qorunmaq üçün ağ, mavi, sarı materiallardan ibarət lenti qapı üzərinə bağlayırlar[2]. Azərbaycan məişətində müxtəlif rəngli parça hissələrindən hazırlanan qurama ornamentinə məxsus bəzək əşyaları təkcə dekorotivliyə deyil, həm də bilavasitə pis, bədxah ruhlardan qorunma inancının təsəvvürlərinə bağlıdır.

Əski türk təsəvvürlərində simvolik məna qazanan rəng sistemi daha sonrakı tarixi dönəmdə İslama transformasiya olunmaqla müxtəlif xalq rəvayətlərində və əfsanələrində yer almışdır. Qara rəngin Allahın Qüreyş-lərə bəxş etdiyi bir rəng olması, yaşıl və qırmızının imam Həsən və imam Hüseynin faciələri üzərində (İmam Həsənin zəhərlənərək öldürülməsi, İmam Hüseynin şəhidliyinə bağlı) mənəvi inanca çevrilməsi ayrıca yer tutur. Bu mənada bədii informasiyanın ötürülməsində poetik dil imkanları həm də rənglər üzərində xüsusi məna qazanır. Bütün hallarda poetik dilin

[1]Örcün H. B. Türk işleme sanatı tarihi. Ankara, Gazi Universitesi Yayınları, 1984, s.24
[2]Алексеев А. Ранние формы религии тюркоязычных народов Сибири. Издательство « Наука», Сибирское отделение, Новосибирск,1980, с.57

müxtəlif yarusları bir-biri ilə qarşılıqlı əlaqə və qanunauyğunluqda bütöv, sistemləşdirilmiş fikir və mətnləri formalaşdırır. Rənglərin məcazlaşması mətn intonemlərinin emotiv (emosional) semantik qrupunda daha çox aktivlik ifadə edir. Ayrıca linqvistik prinsipdə mətn formullarından söz, müqayisə və bədii təyinlərdə xüsusi dil vahidinə çevrilir. Dünyanın idarə olunmasında, xaos-kosmos qarşılaşmasında xeyir və şərin rəng düşüncəsi xalq şeirinin poetik məzmununda daha geniş şəkildə işlədilməkdədir:

Aşiqəm, qaranı yaz,
Ağ üstə qaranı yaz.
Al əl(-inə) (+ə) qələm, davat
(-Başda) Mən günü qaranı yaz[1].

Rənglər şeir mətnlərinin obrazlı-semantik strukturunu təşkil etməklə bir sıra leksik vasitələrin arxaikləşməsinə və dəyişilməsinə də imkan yaradır. Bütün hallarda rənglərə bağlı dilin leksik yaruslarının şeirin formal strukturundakı poetik rolu daha zəngindir.

Şeir mətnlərində rənglərin məna və məzmununun fərqli ifadəsi semantik prinsiplə müəyyənləşən formulların ritual qrupları ilə bilavasitə əlaqəsindən asılıdır. Bu mənada məişət (toy və yas) və mövsüm mərasimlərinin məzmununda rənglər müxtəlif işarəvi funksiyalarda çıxış edir. İnformasiyanın bədii ifadəsi burada yalnız adi poetik ənənəyə əsaslanmır, daha çox ilkin təsəvvür və inanclardan qaynaqlanan təcrübənin mahiyyətinə bağlanır. Başqa sözlə desək, rənglərdə toplanan poetik dil yeni mənaların, ifadələrin yaradılmasında, hər şeydən əvvəl, dünyanın ifadə imkanlarının tarixi təcrübəsini əks etdirir.

Tədqiqatın yekunlarını ümumiləşdirərək **nəticəyə** gəlirik ki, xalq şeirinin yaranması, inkişaf xüsusiyyətləri tarixi bir proses olmaqla arxaik zamanın təcrübəsinə əsaslanır. İlk insan toplumlarının təşəkkülündən başlayaraq formalaşmaqda olan ovsunların, mövsüm və məişət mərasimi nəğmələrinin, bayatıların, ağıların, laylaların, lirik xalq mahnılarının və s. hər bir nümunəsinin səs və söz düzümü, poetik biçimi bütövlükdə tarixi, milli müəyyənlikdə ibtidai təsəvvür, mifik düşüncə və inanclardan qaynaqlanır. Ulu əcdadın mif dünyasının xüsusi kodları xalq şeirinə transformasiyda zəngin folklor xəzinəsinin bədii-estetik, fəlsəfi məzmununda ifadə olunmaqdadır. Azərbaycan xalqının arxaik dünyagörüşünün əsasında duran mifoloji strukturlar, motivlər və obrazlar mədəniyyətin müxtəlif formalarında dərin izlər buraxmış, şifahi epik ənənənin, klassik yazılı ədəbiyyatın qaynağına, dilin leksik tərkibinin əsas elementlərindən birinə

[1] Bayatılar (XVII-XX əsrlər, tərtib edən A.Məmmədova), Bakı, Elm, 1977, s.27

çevrilmişdir. Mədəniyyətin bu sahəsinin xalq poeziyası əsasında öyrənilməsi ulu əcdadın bədii düşüncəsinin və məişətinin iki cəhətini diqqət mərkəzinə çəkir: ilk növbədə, mifoloji qaynaqlar Azərbaycan türklərinin mentalitet stereotiplərini, kökə bağlanan qırılmaz telləri üzə çıxardır, eləcə də mifologiyanın rituallaşmış formaları insanların davranışlarını tənzimləyir. Mifin təsnifi, çoxsaylı mif motivlərinin fərqləndirilməsi bu nümunələrin transformasiyasında da xüsusi forma və şəkillərin meydana gəlməsinə şərait yaratmışdır. Folklorun digər janrları – epos, dastan, əfsanə və nağıllardan fərqli olaraq xalq lirikasında bu proses daha simvolik, işarəvi funksiyada çıxış edir. Mif mətni və motivlərinin qalıqları xüsusi əlamət, ikonoqrafik şəkil və konkret mifoloji obrazlarla müəyyənləşdirilir. Allah, ruh, iyə panteonu, müxtəlif kosmoqonik varlıqlar, təbiət və heyvan kultlarının motivləşmədə iştirakı daha geniş səciyyə daşıyır. Transfemlər konkret mifoloji obrazlar (Umay, Albastı, Xıdır, Əzrayil və s.), onların əlamətləri və mifoloji məkanda qeydə alınır (mağara, Qaf, Cənnət, Cəhənnəm və s.).

Xalq şeirinin ilk nümunələrinin – iş nəğmələrinin yaranması insanın təbiətlə sıx şəkildə təmasda olduğu bir tarixi dövrü əhatə edir ki, "təbiətin atributuna" çevrilən insanın iş təcrübəsi onun qorxularına qalib gəlir, inam və mifik qavramı üzərində bədii düşüncənin rüşeymləri yaranır. Ayrı-ayrı səs təkrarları, müxtəlif səs kombinasiyaları, təqlidi ifadələr üzərində qurulan ilk nəğmə mətnləri müasir baxışda nə qədər pərakəndə görünsə də, hər bir səs, onun ritmik çaları, təqtilər bütövlükdə sistemli bir düşüncəni əks etdirir.

Xalq şeirinin mifoloji kökləri və poetik modelləşməsinin genetik strukturu arxaik, mifoloji-ritual, klassik, mədəni-tarixi sistemlə əhatələnir. Arxaik modelləşmədə mif yaradıcılığının və eyni zamanda poetikliyin əlamətləri Dünyanın yaranması, xaos-kosmos qarşıdurması, kosmosun bərpasından başlanan ilkin yaradılış ünsürlərində üstünlük təşkil edir.

Ontoloji sistemləşdirmədə mif motivləri xalq şeirinə əsasən dünya modelinin canlı, rəng, say simvolikası və onların mifoloji məzmununa bağlı fərqli forma, şəkillərdə daxil olur.

Mərasimlərlə sintezləşən folklor nümunələri – nəğmələr mifik düşüncənin əsas daşıyıcılarından biri olmaqla yanaşı yeni yaradıcılıq meyllərinin və bədii formaların da meydana gəlməsinə təkan vermişdir. Çoxaspektli təhlil əsasında məlum olur ki, mifoloji personajlar, spesifik süjet və motivlərin kompleksi tükənməz xalq yaradıcılığının zəngin şeir fondunun müxtəlif şəkillərinin struktur-semantik əlamətlərini mədəni kodlarla zənginləşdirmişdir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı kitab və məqalələrdə əksini tapmışdır:**

1.Azərbaycan xalq şeirinin genezisi və poetikası (Monoqrafiya).Bakı: Elm və Təhsil, 2017, 412 s.

2. Azərbaycan bayatıları İslamaqədərki ibtidai inam və İslami düşüncə qaynağında // AMEA Folklor İnstitutu "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər": XXXVII kitab, Bakı, 2012, s. 83-94

3. Lirik mətnlərdə "saç"ın mifopoetik simvol kimi struktur-semantik xüsusiyyətləri // AMEA Folklor İnstitutu "Dədə Qorqud" elmi-ədəbi toplusu, № I (42), Bakı, 2012, s. 82-92

4. Xalq mahnılarında Qarabağ // AMEA Folklor İnstitutu "Qarabağ folkloru: problemlər, perspektivlər" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı, 26 dekabr, 2012, s. 124-131

5. Xalq bayatılarında tarixi Qarabağ obrazı // AMEA Folklor İnstitutu və AMEA A.Bakıxanov adına Tarix İnstitutunun "Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının Materialları. Bakı, 19-20, 2012, s.140-145

6. "Yağışı dəvət" mərasimi və mərasimlə bağlı nəğmələrin struktur-semantik xüsusiyyətləri // Bakı Dövlət Universitetinin "Dil və ədəbiyyat": beynəlxalq elmi-nəzəri jurnalı. № 3 (83). Bakı, 2012, s.177-179

7. Toplama mətnlərinin sistemləşdirilməsində xalq şeirinin üslub özəlliklərinin fərqləndirilməsi // AMEA Folklor İnstitutunun "Folklorun toplanması və sistemləşdirilməsi problemləri" mövzusunda Respublika Elmi Konfransının Materialları, Şamaxı şəhəri, 5 iyun, 2013, s.115-122

8. Mövsüm mərasim nəğmələrində obrazlar: Qodu, Xıdır Nəbi, Kosa // Bakı Slavyan Universitetinin "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" ali məktəblərarası elmi məqalələr məcmuəsi. №3, Bakı, 2013, s.104-110

9. Xalq məişətində ovçuluq və ovçuluqla bağlı nəğmələrin formalaşma xüsusiyyətləri // AMEA Folklor İnstitutu "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər": 42-ci kitab. Bakı, 2013, s.70-79

10. Mifopoetik modellərin genetik sistemləşdirilməsində od kultu //AMEA Folklor İnstitutu "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər": №1, Bakı, 2014, s.74-82

11. Стилистические особенности народной лирики // Ученые записки Таврического Национального Университета имени В.И.Вернадского Том 27 (66), №3, Филология. Социальные Коммуникации, Симферополь, 2014, с.229-234

12. "Kos-kosa", "Keçəl" oyun nəğmələrinin performativ mətn özəllikləri //AMEA Folklor İnstitutunun "Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfrans.Tərtər şəhəri, 14 noyabr, 2014, s.331-341

13. Особенностивозникновения заклинаний и формирования заклинающих песен // Вестник Казахский Национальный Университет имени Аль-Фараби: Вестник серия филологическая. Алматы «Казак университет», № 4 (156), 2015, с.127-132

14. Особенности обрядовых погребальных текстов // Материалы II Международной научно-практической конференции на тему «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века». Пятигорск, 2015, с.10-15

15. Azərbaycan xalq mahnılarının yaranması və janr xüsusiyyətləri // AMEA Naxçıvan bölməsi. İncəsənət, dil və ədəbiyyat İnstitutu. "Axtarışlar". Cild 5, № 3, 2015, s.11-17

16. Xalq mahnılarında predmet-obrazların funksionallığı və mifoloji qaynaqları (“Alma və “nar” obrazları əsasında) // Bakı Slavyan Universieti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş “VI Beynəlxalq elmi konfrans”ın Materialları I hissə, Bakı, 5-7 may, 2015, s.7-11

17. Xalq şeirində İslam motivləri // AMEA Folklor İnstitutu “Dədə Qorqud” elmi-ədəbi toplusu, № II (54), Bakı, 2015, s.73-87

18. Toy mərasimi nəğmələrinin janr xüsusiyyətləri və poetikası // Bakı Avrasiya Universiteti “Sivilizasiya” elmi nəzəri jurnalı, № 9, “Bakı Avrasiya Universitetinin” nəşri, 2015, s.32-40

19. Символика чисел в поэтической системе народной поэзии (на основе поэтизации чисел 3 и 7) // Материалы Международной научно-практической конференции на тему «Язык, письменность и алфавит: Актуальные проблемы их взаимодействия». г.Майкоп, 26-27 октября, 2016, с.26-33

20. Miflərin yaranması, məzmun və poetikası // Filologiya məsələləri, Bakı, “Elmvə təhsil”, № 8, 2015, s.418-422

21. Xalq şeirinin poetik sistemində canlı (heyvan və quş) obrazları // Bakı Universitetinin “Xəbərləri”, Humanitar elmlər seriyası. “Bakı Universiteti” nəşriyyatı, №3, 2016, s.54-60

22. İlkin təsəvvürlər sistemi və poetik təcrübə // “Dədə Qorqud” elmi-ədəbi toplu, 2016, I (58) s.63-71

23. Xalq şeirinin poetik sistemində rəng simvolikası (“Ağ” və “qara” rənglərin simvolik məzmunu əsasında) // Akademik T.Hacıyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş “Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi” mövzusunda Respublika elmi konfransının Materialları, Bakı, 2 noyabr, 2016, s.278-281

24. Əkinçi nəğmələrinin yaranması, məzmun və poetikası // AMEA Naxçıvan bölməsi. İncəsənət, dil və ədəbiyyat İnstitutu. “Axtarışlar” cild 6, № 2, Naxçıvan, 2016, s. 24-30

25. Miflərin arxaik və klassik strukturda formalaşması mexanizmi və xalq poeziyasına transformasiyası // Azərbaycan Dillər Univeristeti, “Dil və Ədəbiyyat”. №3, Bakı, 2016, s.147-153

26. Структурно-семантические особенности песен о «ветре» в народной поэзии // Вестник Казахского Национального Педагогического Университета. Серия «Филологические науки» № 3(57), 2016, с.92-97

27. Mifoloji və bədii yaradıcılığın spesifikası(Xalq ədəbiyyatı nümunələri əsasında) //AMEA Naxçıvan bölməsi. İncəsənət, dil və ədəbiyyat İnstitutu. “Axtarışlar”. Cild 6, № 3, Naxçıvan, 2016, s.20-26

28. Nəğmə mətnlərinin poetik sistemində sarı, göy, yaşıl rənglərinin mifoloji semantikası // ADPU-nun “Xəbərlər”i elmi-metodik jurnalının 2017-ci il 1 saylı “Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası”, 2017, C.65. №1, 224 s.

29. Azərbaycan xalq şeirinin təsnifi prinsipləri // Bakı Qizlar Universiteti. “Elmi əsərlər” jurnalı. Bakı, № 3, 2017, s.24-30

30. Xalq şeirinin poetik sistemində təbiət kultları (“Dağ” kultu əsasında) // BDU-nun Dil və Ədəbiyyat jurnalı. №2(102), Bakı, 2017, s.278-281

31. Xalq şeirinin genepoetik sistemində “su” kultu // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. “Filologiya məsələləri”, Bakı, “Elm və təhsil”, №4, 2018, s. 307-312

32.The functional semantics of psychhological characters in the genepoetical system of folk poem // CONFRONTATİON Literary magazine. HUDSON, USA – 2018, ISSUE 123, SUM – II (Special Issue-II), Long Island University, p.31-41

33. "Xına gecəsi" mərasimi nəğmələrinin məzmunu və poetikası (Təbriz folkloru əsasında) // AMEA Folklor İnstitutu "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər": №1(52), Bakı, 2018, s.39-46

34. Təbrizdə qədim toy nəğmələri və mərasim rituallari// Bakı Universitetinin "Xəbərləri", Humanitar elmlər seriyası. "Bakı Universiteti" nəşriyyatı, 2018, (0,5 çv)

*Matanat Mashallah gizi Abbasova*

# MYTHOLOGICAL BACKGROUND OF AZERBAIJANI FOLK POETRY AND ITS POETICAL SYSTEM

## SUMMARY

Although the history of studying folk poetry is not new in Azerbaijan folklore, the systematical study of these texts has not been conducted as a specific research in the context of mythological way of thinking and in the aspect of fictional creativity yet. The main objective of the study is to determine mythological roots of Azerbaijan folk poetry and general basic poetic system on the basis of specific fictional characteristics. Content and form opportunities of poetical structure have been studied thoroughly in this dissertation taking historical and typological evolution of folk poetry as a basis. The latest results of Azerbaijan and world folklore study form the methodological basis of this research. The formation of separate genres of folk poetry and main factors shaping its development are described in the historical and cultural context. Poetic means of folk poetry has been studied along with genre and stylistic features in the context of mythological way of thinking and ethno poetry for the first time. This method is justified practically, scientifically and theoretically in studying folk poetry. The dissertation consists of introduction, four chapters, conclusion and literature. The introduction contains the information about topicality, aim and objectives of the theme, the study extent of Azerbaijani-Turkic mythology, theoretical and methodological basis, object and subject, scientific innovation, practical signficance, approbation and structure of the research.

The first part is called **"The theoretical and methodological basis of "Myth and fictional creativity" problems in folk literature".** Here the study of the history of mythology, main provisions of modern scientific theories are discussed, the results of explaining the problem from the different aspects are summarized, opinions on the results existed in scientific and theoretical idea in the world are expressed.

The second part is called **"The mythological peculiarities and genre system of folk poem"** and dedicated to mythic characteristics and genre system of folk poetry. Here genre structure and mytho-poetry of folk poetry, mythological rhythm and rhythmic-melodic structure of songs devoted to elementary occupations, magical-mythic structure of witchcraft, analysis of the poetics of ceremony singings in the context of myth and ritualism, mythopoetics of seasonal ceremony songs, structural-semantic features of the songs related to "Wind", "Rainmaking" ceremony songs, "Call of the Sun" ceremony songs, "Khidr Nabi" ceremony songs, "Novruz" ceremony songs are studied.

The third part is called **"The system of characters of folk poem and ist mhtyogenezis"**. The problems like archaic-poetic system, mythopoetics of nature cults: mountain, water and fire cults, forming Islamic views in folk poems, the poetry of folk poems in the context of cultural-historical modelling, stylistic features of folk poetry are engaged in this part.

The fourth part is called **"Mythic World Model in Poetical Structure of Folk Poetry".** The subject-specification of characters, mythological symbolism of numbers, animal and bird characters, colours in the poetic system of folk poetry in the mythopoetic system are studied in this chapter. Summarizing the results of the study we can come to the conclusion that mythological structures and characters standing on the basis of archaic outlook of Azerbaijan people engraved in the different forms of the culture and became a source of oral epic tradition and classic written literature. Along with being one of the main carriers of mythic thought, folklore patterns synthesized ceremonies stimulate the formation of new creativity trends and fictional forms. It is clear based on multi-aspect analysis that various characters, complex of specific plot and motives

enriched the structural-semantic signs of different forms of rich poetry collection of inexhaustible folklore.

*Матанат Машаллах кызы Аббасова*

## МИФОЛОГИЧЕСКИЕ КОРНИ И ПОЭТИЧЕСКАЯ СИСТЕМА АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ ПОЭЗИИ

### РЕЗЮМЕ

Хотя история изучения народной поэзии в азербайджанскойфольклористике не новшество, однако, системное исследование этих текстов, в контексте мифологического мышления, и в аспекте художественного творчества, все еще досконально не изучена. Основная цель исследования, это определение общей поэтической системы на основе мифологических корней и отдельных художественных особенностей азербайджанской народной поэзии.

В основе диссертации лежит историко-типологическое мышление народной поэзии, и широко исследуются возможности содержания и форм, поэтической структуры. Последние достижения азербайджанской и мировой фольклористики составляют методологическую основу исследования. Формирования отдельных жанров народной поэзии, основные факторы, обуславливающие его развитие, объясняются в исторически-культурном контексте. Впервые возможности народной поэзии исследуются совместно с мифологическим мышлением и со стилистическими особенностями этнопоэтического жанра. В изучении фольклорной поэтики данный практический метод обосновывается научно-теоретическим образом.

Диссертация состоит из введения, четырех глав, заключения и списка литературы.

Во введение представляется информация об актуальности, цели и задачи темы, степени исследования азербайджано-тюркской мифологии, теоретическом и методологическом обосновании, научном новшестве, практическом значении.

Первая глава называется **«Теоретические и методологические основы проблемы «мифического и художественного творчества» в народной литературе».** В этой главе рассказывается об истории исследования мифологии, об основных положениях современных научных теорий, обобщаются результаты всестороннего изучения проблемы, высказываются различные научно-теоретические взгляды.

Вторая глава посвящена «**Мифическим особенностям и жанровой системе народной поэзии».** В этой главе исследуются жанровая структура и мифопоэтика народной поэзии, ритмико-мелодическая структура песен, магически-мифологическая структура заклинаний, анализ поэтики обрядовых песен в контексте мифическо-ритуального синтеза, мифопоэтика обрядовых песен, структурно-семантические особенности песен, связанных с «Вызыванием ветра», обрядовые песни «Призыва дождя», обрядовыепесни «Призыва солнца», обрядовые песни «Хызыр Наби», обрядовые песни праздника Новруз.

В третьей главе под названием **«Система образов и мифогенез народной поэзии»** привлечены к исследованию такие проблемы как архаическо-поэтическая система, мифопоэтика природных культов: культов гор, воды и огня, моделирования Исламского взгляда в народной поэзии, стилистические особенности народной поэзии в контексте культурно-исторического моделирования поэтики народной поэзии.

Четвертая глава называется **«Мифологическая модель мира в поэтической структуре народной поэзии».** В данной главе исследуется специфика предметов-образов, символика чисел, образов животных и птиц, мифологических цветов в поэтической системе народной поэзии.

Обобщая итоги исследования, приходим к такому заключению, что мифологические структуры, возглавляющие архаическое мировоззрение азербайджанского народа,

оставили глубокий след в различных формах культуры, превратились в источник устной эпической традиции, классической письменной литературы. Фольклорные образцы, синтезирующие с обрядами, наряду с тем, что являются одним из основных носителей мифического мышления, также способствовали возрождению новых творческих навыков и художественных форм.

В **«Заключении»** диссертации обобщаются основные научные выводы, полученные в ходе исследования и намечаются направления дальнейших исследований по этой теме.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

*На правах рукописи*

**МАТАНАТ МАШАЛЛАХ кызы АББАСОВА**

# МИФОЛОГИЧЕСКИЕ КОРНИ И ПОЭТИЧЕСКАЯ СИСТЕМА АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ ПОЭЗИИ

**5719.01 – Фольклористика**

## АВТОРЕФЕРАТ

диссертации на соискание научной степени доктора филологических наук

**БАКУ – 2018**